# ELM НАУКА

Qüvvət elmdədir...

Nizami Gəncəvi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Орган Президиума Национальной академии наук Азербайджана

№ 26 (1336) ❖ Cümə, 15 iyul 2022-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# 1969-cu ilin iyulundan başlayan Heydər Əliyev yolu Azərbaycanı zəfərdən-zəfərə, zirvədən-zirvəyə aparır

**1969-cu il 14 iyul tarixinin Azərbaycan həyatında xüsusi yeri var. Azərbaycan KP MK-nın iyul plenumunda Heydər Əliyevin birinci katib seçilməsi ilə Azərbaycanın intibah dövrü başladı - Bakıda məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, "Gülüstan" sarayı, indiki Heydər Əliyev sarayı kimi yaraşıqlı binalar inşa edildi. Yeni Əhmədli, Günəşli yaşayış massivləri, mikrorayonlar salındı. Eyni zamanda, kənd təsərrüfatı inkişaf yoluna çıxdı, pambıq, üzüm, tərəvəz istehsalı dəfələrlə artdı.**

Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə həm də xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən genişmiqyaslı tədbirlər həyata keçirildi, insanlarda milli ruhun oyanışı başladı. Ümummilli Lider Qarabağa çox böyük diqqət və qayğı göstərir, Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyurdu. Bunun nəticəsində ermənilərin ərazi iddiaları iflasa uğrayır, onların öz çirkin niyyətlərini həyata keçirmələri üçün ciddi bir manеə yaranırdı. Ümumiyyətlə, Heydər Əliyevin qətiyyətli mövqeyi hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat edirdi.

Heydər Əliyev yalnız Azərbaycanın intibah dövrünün müəllifi deyil, həm də öz idealları ilə yollarımızı işıqlandıran parlaq mayakdır, xalqımızın qürur və iftixar mənbəyidir. O, SSRİ-nin əsas rəhbər orqanının - Siyasi Büronun üzvü idi. Sonradan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdi. Bu, Azərbaycanda böyük ruh yüksəkliyi yaratmışdı. İlk dəfə idi ki, Azərbaycan oğlu SSRİ-nin hakimiyyət iyerarxiyasında yüksək mövqe tuturdu. Həmin dövrdə Heydər Əliyev bir sıra ittifaqmiqyaslı layihələri Bakıya yönəltdi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən gördüyü nəhəng işlər, fitri təşkilatçılıq bacarığı Heydər Əliyevin şöhrətini getdikcə artırırdı. Bu, imperiyanın bəzi rəhbərlərini qıcıqlandırır, onlarda həsəd və paxıllıq hissləri baş qaldırırdı.

Mixail Qorbaçovun siyasi hakimiyyətə gəlişindən sonra Heydər Əliyevə qarşı aparılan bədnam kampaniya açıq müstəviyə keçdi. O, ölkə rəhbərliyi ilə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən tutduğu vəzifələrdən istefa verdi. Bunun la da Azərbaycanın qara günləri başladı. Əminliklə demək olar ki, əgər o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, 20 Yanvar hadisələri baş verməz, torpaqlarımız işğal altına düşməzdi.

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə Azərbaycanda görünməmiş xaos və anarxiya hökm sürürdü. İqtidarın səriştəsizliyi, hakimiyyət uğrunda çəkişmələr ölkəni uçuruma aparırdı. 1993-cü ilin ortalarında siyasi-iqtisadi böhran kulminasiya nöqtəsinə çatdı. Belə mürəkkəb və ağır vəziyyətdə xalqın yeganə ümid yeri Heydər Əliyevə idi. Hamı düşünürdü ki, Azərbaycanı düşdüyü fəlakətdən yalnız bu dahi şəxsiyyət xilas edə bilər.

Odur ki, xalqımız Ulu Öndəri təkidlə Bakıya, siyasi rəhbərliyə dəvət edirdi. Beləliklə, Heydər Əliyev hakimiyyətə gələrək xilaskarlıq missiyasını üzərinə götürdü. Bu qayıdış Azərbaycan tarixinə həmişəlik yazıldı. Heydər Əliyev uzaqgörən siyasəti, güclü iradəsi sayəsində Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsi təhlükəsindən xilas etdi.

Müdrik siyasi və dövlət xadimi olan Heydər Əliyev, ilk növbədə, ölkəyə ictimai-siyasi sabitlik gətirdi, yeni iqtisadi strategiyanın əsasını qoydu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın inkişafının gələcək uğurlarının təməlləri atıldı. Daha sonra bu strategiyanın nəticəsi olaraq Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri ərsəyə gəldi. Prezident İlham Əliyev Ulu Öndərin ideyalarını uğurla davam etdirərək yeni transmilli layihələrin - Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Avropanın enerji xəritəsini dəyişən Cənub Qaz Dəhlizinin, o cümlədən TAP və TANAP-ın həyata keçirilməsinə nail oldu.

Ulu Öndər sosial-iqtisadi siyasətdə köklü dəyişikliklərlə yanaşı, nizami ordu yaradılması istiqamətində də davamlı addımlar atırdı. Məhz həmin dövrdə qurulan ordu torpaqlarımızın işğaldan azad olunacağına inamı gücləndirirdi.

Xatırlatmaq yerinə düşər ki, Ulu Öndər hələ sovet dövründə peşəkar milli hərbçi kadrların yetişdirilməsini də diqqət mərkəzində saxlayırdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb yaradıldı. Həmçinin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində azərbaycanlı gənclərə daha çox yer ayrıldı. Bir çox gənclər SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərildi. Həmin dövrdə yetişən Azərbaycan hərbçiləri milli ordunun təşəkkül tapmasında mühüm rol oynadılar.

Ulu Öndərin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır".

Ümummilli Lider tərəfindən əsası qoyulan möhkəm təməl üzərində Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yarada bildi. Məhz bunun sayəsində torpaqlarımızın işğaldan azad edildiyi gün yetişdi, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirdi. Üçrəngli bayrağımız yenidən doğma Qarabağda, iftixar mənbəyimiz olan Şuşada dalğalanmağa başladı, ərazi bütövlüyümüz təmin edildi.

Vətən müharibəsində qazanılmış böyük Zəfərin qürur və sevincini yaşadığımız bu günlərdə Ümummilli Liderin vaxtilə məcburi köçkünlər qarşısında böyük inamla dediyi sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Bu gün Ulu Öndərin arzuları reallaşıb. Xalqımızın 30 illik yurd həsrətinə son qoyulub. Biz artıq doğma Qarabağımıza qovuşmuşuq. Bu böyük Zəfərə aparan yolun əsasında Azərbaycanın böyük oğlu dahi Heydər Əliyevin ölməz ideyaları dayanır.

Beləliklə, 53 il əvvəl başlayan Heydər Əliyev yolu Azərbaycanı zəfərdən-zəfərə, zirvədən zirvəyə aparmaqdadır.



**1969-cu il 14 iyul plenumu - Azərbaycan elminin inkişafında yeni dövrün başlanğıcı**

səh. 3 ⇨



**AMEA Rəyasət Heyəti üzvlərinin elmi müəssisələrin rəhbərləri ilə görüşü**

səh. 2 ⇨



**"Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" mövzusunda II beynəlxalq konfrans**

səh. 6 ⇨




**Zəngəzur faciələrinin dolğun bədii salnaməsi**

səh. 7 ⇨

# AMEA-nın Rəyasət Heyəti adından Qurban bayramı münasibətilə Akademiya əməkdaşlarının təbriki

**Hörmətli həmkarlar!**

Sizi İslam dünyasının müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, xeyirxahlığı, imkansıza daim əl tutmağı aşılayan bu əziz bayramda uca Allahdan kəsilən qurbanların, nəzir və niyazlarınızın qəbul olunmasını diləyirik.

Qurban bayramı Həzrəti İbrahim peyğəmbərin və onun əziz oğlu İsmayılın mirası olaraq əsrlər boyu xalqımız tərəfindən bütün dövrlərdə nəsildən-nəslə ötürülərək yaşadılmış, ehtiva etdiyi ənənələri və dəyərləri ilə xalqımızın dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Məhz bu adət-ənənələrdən irəli gələrək tarixən və bu gün müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələrinə ölkəmizdə tolerant yanaşılır və onlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Azərbaycanda İslam dininin adət-ənənələrinə və müqəddəs bayramlarına olan münasibət ölkə rəhbərliyi səviyyəsində daim açıq şəkildə ifadə edilmiş, Ulu Öndər Heydər Əliyev, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daim İslam dininin mədəniyyətinə yüksək qayğı göstərilmiş, tarixi bir çox dini abidə kompleksləri bərpa edilmiş, eləcə də yeniləri inşa olunmuşdur. Hazırda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Qarabağa "Böyük Qayıdış" prosesi çərçivəsində bölgədəki tarixi məscidlər bərpa olunur və öz əvvəlki görkəminə qaytarılaraq xalqımızın istifadəsinə verilməsi planlaşdırılır.

Həmçinin Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq modellərini bir çox dövlətlər bu gün nümunə olaraq görür, öyrənir və öz cəmiyyətlərində tətbiq etməyə çalışırlar. Eyni zamanda son illərdə Azərbaycanın təşəbbüsü ilə "Bakı Prosesi" başladılmış, Bakı Beynəlxalq Humanitar Forumları, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, IV İslam Həmrəyliyi Oyunları keçirilmiş, 2017-ci ildə ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilmişdir ki, bununla da ölkəmiz dünya multikulturalizminə və İslam həmrəyliyinə öz güclü töhfəsini vermişdir.

**Hörmətli həmkarlar,**

Sizi Qurban bayramı münasibətilə bir daha təbrik edir, kəsilən qurbanların Allah tərəfindən qəbul olunmasını diləyir, cansağlığı və elmi fəaliyyətinizdə uğurlar arzulayırıq.

**AMEA-nın Rəyasət Heyəti**

# AMEA Rəyasət Heyəti üzvlərinin elmi müəssisələrin rəhbərləri ilə görüşü





**İyulun 7-də Mərkəzi Elmi Kitabxanada AMEA Rəyasət Heyəti üzvlərinin elmi müəssisə və təşkilatların rəhbərləri ilə "Açıq mikrofon" formatında görüşü keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti v.i.e., akademik Arif Həşimov bu görüşün rəsmi formatda deyil, yarım illik iş mövsümünün başa çatdığı bir şəraitdə elmi, elmi-təşkilati fəaliyyətin yekunlarını müzakirə etmək, elm qarşısında duran vəzifələri müzakirə etmək, elmi müəssisə və təşkilatların mövcud problemlərini dinləmək, gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək və səmimi müzakirələr aparmaq məqsədilə keçirildiyini söyləyib.

Akademiyanın tarixən Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatında aktiv rol oynadığını deyən akademik Arif Həşimov bu gün AMEA-da istər ölkənin sosial-iqtisadi inkişaf istiqamətlərinə, istərsə də müasir dünyanın çağırışlarına uyğun mühüm tədqiqatların aparıldığını söyləyib.

Akademik Arif Həşimov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı əsasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi ilə bağlı AMEA-nın elmi müəssisə və təşkilatları tərəfindən görülmüş işlər haqqında danışıb, ilin sonunadək bu istiqamətdə bir sıra mühüm vəzifələrin də həyata keçirilməsi zərurətini diqqətə çatdırıb.

Cari ilin aprel ayının 27-də AMEA-nın Ümumi yığıncağının baş tutduğunu və Akademiyanın gələcək fəaliyyət planını əks etdirən qərar layihəsinin qəbul olunduğunu xatırladan akademik Arif Həşimov layihənin yekun variantının hazırlanması məqsədilə bölmə üzvləri ilə görüşlərin keçirildiyini bildirib. O, atılan bütün addımların Akademiyanın və bütövlükdə Azərbaycan elminin inkişafının dinamikliyinin təmin edilməsi məqsədi daşıdığını söyləyib.

Tədbirdə, AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə, AMEA-nın vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, Dilqəm Tağıyev, İradə Hüseynova, AMEA Rəyasət Heyətinin üzvləri, akademiklər Fikrət Əliyev, Adil Qəribov, Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik Vaqif Fərzəliyev, Folklor İnstitutunun baş direktoru, akademik Muxtar İmanov, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Biofizika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Oktay Qasımov, Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru, AMEA-nın müxbir üzvü Namiq Cəlilov, İqtisadiyyat İnstitutunun baş direktoru, professor Nazim İmanov, Elm Tarixi İnstitutunun baş direktoru, professor Məryəm Seyidbəyli və Fiziologiya İnstitutunun baş direktoru, professor Ulduz Həşimova və digərləri müzakirələrə qoşularaq hazırkı şəraitdə Akademiya qarşısında duran vəzifələrdən, mövcud problemlərin aradan qaldırılması yollarından, Akademiyanın strukturunun və idarəedilməsinin təkmilləşdirilməsi, yeni maliyyələşmə mexanizmlərinin tətbiqi zərurətindən, yüksəkixtisaslı kadr hazırlığı sahəsində həyata keçirilməli tədbirlərdən bəhs ediblər.

Müzakirələrdə Akademiyanın maddi-texniki bazasının gücləndirilməsi, laboratoriyalarının müasir cihazlarla təmin olunması, xaricdən avadanlıqların alınması və gömrük sənədləşməsinin sadələşdirilməsi, müəssisələrdə olan cihazların təmiri və sazlanması, əvvəlki illərdən alınmış cihazlardan əldə olunan nəticələrin ictimaiyyətə təqdim edilməsi, AMEA-nın magistraturasında dərs deyən müəllimlərin stimullaşdırılması, xarici dillərin tədrisi sahəsində fəaliyyətin genişləndirilməsi, gənclərin Avropanın müxtəlif ölkələrinə təhsil almaq üçün göndərilməsi, kadrların uyğunluğunun müəyyənləşdirilməsi üçün attestasiyanın aparılması, institutlarda elmlər doktorluğu üzrə müdafiəyə diqqətin artırılması, elmi diasporun potensialından daha geniş istifadə edilməsi, elmin maliyyələşdirilməsində qrant layihələri üzrə ünvanlı maliyyələşmə mexanizmlərinin tətbiqi, göndərilən mövzuların institutların alimlərinin iştirakı ilə müzakirəsi, yeni müstəqil maliyyələşmə mexanizmindən istifadə edilməsi, Akademiyada Tətbiq şöbəsinin bərpa edilməsi, şəhərdən kənarda eksperimental sınaqlar aparmaq üçün mərkəzin yaradılması, ölkədəki bütün elmi ekspertizalarda Akademiyanın yaxından iştirakı və s. istiqamətlərdə təkliflər səsləndirilib.

Sonda akademik Arif Həşimov səsləndirilən təkliflərə münasibətini bildirib, tədbir iştirakçılarını qarşıdan gələn Qurban bayramı münasibətilə təbrik edərək görüşə yekun vurub.

# Akademik Arif Həşimov Lahor Dövlət Kollec Universitetinin alimləri ilə görüşüb

**İyulun 14-də AMEA-nın prezidenti v.i.e., akademik Arif Həşimov "Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri" beynəlxalq konfransı çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın Lahor Dövlət Kollec Universitetinin bir qrup alimi ilə görüşüb.**







Görüşdən öncə qonaqlar Nizami Gəncəvinin heykəli önündə xatirə şəkli çəkdiriblər və AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və İnformasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli və Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov da iştirak ediblər.

Görüşdə çıxış edən akademik Arif Həşimov doğma və qardaş Pakistan Respublikasının nümayəndələrini Akademiyada görməkdən məmnun olduğunu bildirib. Qeyd edib ki, Pakistan daim Azərbaycana dost ölkə olub və respublikamız müstəqilliyini əldə etdikdən sonra münasibətlərimiz daha da güclənib, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub.

Bu ilin yanvar ayında Azərbaycan Milli Elmlər Akademiyası ilə Pakistanın Lahor Dövlət Kollec Universiteti arasında anlaşma memorandumunun imzalandığını xatırladan akademik Arif Həşimov ötən müddət ərzində tərəflərin iştirakı ilə bir sıra onlayn görüşlərin keçirildiyini diqqətə çatdırıb, Lahor Dövlət Kollec Universitetində təlim keçən AMEA-nın iki doktorantına göstərilən diqqət və qayğıya görə universitetin rəhbərliyinə Akademiya adından minnətdarlığını bildirib.

15-18 iyul tarixlərində AMEA-nın Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə baş tutacaq "Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri" beynəlxalq konfransının keçirilməsinin əhəmiyyətini vurğulayan akademik Arif Həşimov tədbirin iki ölkə arasında elmi-ədəbi, mədəni əlaqələrin inkişafına və güclənməsinə töhfə verəcəyini söyləyib.

Sonra çıxış edən AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli Azərbaycanla dost və qardaş ölkə Pakistan arasında uzun illərə dayanan güclü iqtisadi, siyasi, elmi, mədəni münasibətlərin olduğunu vurğulayıb. Qeyd edib ki, Pakistandan müxtəlif heyətlər Akademiyanın institutlarında keçirilən tədbirlərdə iştirak etsələr də, Lahor Dövlət Kollec Universitetinin nümayəndə heyəti ilk dəfədir AMEA-ya və ölkəmizə səfər edir. Akademik bu səfərin AMEA ilə Pakistanın Lahor Dövlət Kollec Universiteti arasında imzalanmış anlaşma memorandumunun həyata keçirilməsində mühüm rol oynayacağını söyləyib.

O, 2004-cü ildə müəllifi olduğu Cəlil Məmmədquluzadə ilə bağlı kitabın İslamabadda işıq üzü gördüyünü, həmçinin 100 Azərbaycan şairinin şeirlərinin ingilis dilində Pakistanda çapdan çıxdığını deyib və bu ölkəyə müxtəlif illərdə etdiyi səfərlər barədə məlumat verib.

15-18 iyul tarixlərində keçiriləcək "Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri" beynəlxalq konfransı barədə danışan akademik İsa Həbibbəyli tədbir çərçivəsində AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Pakistan guşəsinin açılacağını, Pakistanın tanınmış şairi və filosofu Məhəmməd İqbalın "Seçilmiş əsərləri"nin, eləcə də Azərbaycan Yazıçılar Birliyinin "Dünya ədəbiyyatı" jurnalının Pakistan ədəbiyyatına həsr olunmuş xüsusi buraxılışının təqdimatının baş tutacağını, Quba Soyqırımı Memorial Kompleksinə, o cümlədən bir sıra muzeylərə səfərlərin təşkil ediləcəyini diqqətə çatdırıb.

Ədəbiyyat İnstitutu tərəfindən Məhəmməd İqbalın "Seçilmiş əsərləri"nin Azərbaycan dilinə tərcümə olunduğunu və görkəmli ədiblə bağlı monoqrafiyanın hazırlandığını deyən alim öz növbəsində Pakistanda urdu dilində dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin nəşrinin əhəmiyyətindən danışıb.

Görüşdə, həmçinin Lahor Dövlət Kollec Universitetinin nümayəndə heyətinin rəhbəri, sözügedən universitetin Urdu dili kafedrasının müdiri, professor Saima İram, həmin kafedranın dosenti Almaz Xanum, Ərəbşünaslıq və İslamşünaslıq kafedrasının müdiri, Dr. Hafiq Məhəmməd Nayem, Fars dili kafedrasının dosenti, Dr. Babar Naseem Assi və Urdu dili kafedrasının dəvət olunmuş məruzəçisi Məhəmməd Hammad Niyazi çıxış edərək Bakıda olmaqdan məmnunluqlarını dilə gətirib, Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri haqqında bir çox təqdiqatlar aparmaq niyyətində olduqlarını vurğulayıblar. O cümlədən dahi Azərbaycan şairi Nizaminin bir çox əsərləri ilə tanış olduqlarını söyləyib, görkəmli ədibin kitablarının yaxın gələcəkdə urdu dilinə tərcümə olunaraq nəşr ediləcəyini diqqətə çatdırıblar.

Daha sonra qonaqlar AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyini ziyarət ediblər.

# 1969-cu il 14 iyul plenumu - Azərbaycan elminin inkişafında yeni dövrün başlanğıcı

**Dünyanın böyük xalqları mövcud olduqları siyasi coğrafiyada tutduqları strateji mövqelərinə görə müdriklik zirvəsini fəth etmiş liderlərinə, xalqı təşkilatlandırıb arxasınca apara bilən müzəffər sərkərdələrinə, milli ideyaya sadiq və onun daşıyıcısı olan görkəmli ictimai-siyasi xadimlərinə borcludurlar. Bu cür şəxsiyyətlər öz xalqlarının tarixini yazır, yaradır, müəyyən anlarında dövlətlərin taleyinə və inkişafına ciddi təsir edən hadisələrin mərkəzində dayanır, bəzən bu hadisələrin istiqamətini dəyişəcək qədər qüdrətli olurlar. Bu gün Azərbaycan Respublikası müstəqillik dövründə bütün çətinlik, problem və təhdidlərə qarşı möhkəm dayanıb intensiv inkişaf yoluna çıxaraq öz təhlükəsizliyini təmin edə biləcək qüdrətə çatıbsa, Vətən müharibəsində böyük Zəfərin əldə edilməsinə nail olubsa, bütün bunlar ulu öndər Heydər Əliyevin şəxsiyyəti, rəhbərlik qüdrəti, sarsılmaz iradəsi, əsasları məhz onun tərəfindən 53 il bundan öncə ölkəyə rəhbərlik etməyə başlayarkən qoyulmuş böyük dövlətçilik siyasəti sayəsində mümkün olub.**



1960-cı illərin sonlarında respublika iqtisadiyyatı dərin böhran mərhələsinə qədəm qoymuşdu. Bir çox sahələrdə milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqi nailiyyətlərinin istehsala tətbiqinə görə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənaye sahələrində, kənd təsərrüfatında texniki-iqtisadi göstəricilər aşağı düşürdü. Taxılın, pambığın, tərəvəzin, üzümün, çay və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi. İqtisadiyyatın inkişafı üçün prinsip etibarilə yeni konseptual proqram işlənməsi, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodlar tətbiq edilməsi və s. zəruri vəzifələr qarşıda dururdu. Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində güclü, bacarıqlı təşkilatçı, cəsarətli bir rəhbərə ehtiyac var idi. Məhz belə bir zamanda Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) 1969-cu il iyulun 14-də baş tutmuş plenumu xalqımızın, dövlətimizin və milli dövlətçiliyin tarixində böyük dönüş nöqtəsi oldu, ölkənin iqtisadiyyatında, mədəniyyətində, dövlət quruculuğunda, ictimai-hüquq sistemində, elm və təhsilində yeni, möhtəşəm bir dövrün başlanğıcını qoydu. Plenumda yekdilliklə Azərbaycan SSR KP MK-nın birinci katibi vəzifəsinə seçilmiş Heydər Əlirza oğlu Əliyev çıxışında göstərmişdi ki, o, tam məsuliyyətlə qarşıda duran çətin və mürəkkəb vəzifələri anlayır və öz əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcəkdir. Dahi Heydər Əliyevin fitri istedadı, yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və güclü təşkilatçılığı respublikada 1970-80-ci illərdə qazanılmış bütün müvəffəqiyyətlərin rəhni olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin inkişaf və tərəqqi siyasətinin milli məfkurəyə və dərin elmi təhlillərə, ölkənin elmi potensialının daim gücləndirilməsinə və bu potensialdan maksimum səmərəli istifadəyə əsaslanması onun ardıcıllığını, davamlılığını, tarixi uğurlarını təmin etmişdir. Azərbaycan xalqının böyük rəhbərinin elm və təhsilin əhəmiyyətinə verdiyi dəyər cəmiyyət həyatının bütün digər sektorlarının dayanıqlılığı və inkişafı üçün çox böyük önəm daşıyıb.

Böyük Fransız yazıçısı Emil Zolyanın "Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər" fikrini Ulu Öndər qədər dərindən duyan, dərk edən ikinci dövlət xadimi tapmaq çox çətin olardı. Böyük strateq Heydər Əliyev bilirdi ki, elm yer üzündə canlı həyatın davamında və bəşəriyyətin yaşam keyfiyyətinin yüksəldilməsində, insan cəmiyyətinin tərəqqisi və rifahının yaxşılaşdırılmasında, daim qloballaşan dünyada dayanıqlı inkişafının, beynəlxalq sülh və əməkdaşlığın təmin olunmasında və dərinləşdirilməsində başlıca hərəkətverici qüvvədir. O, cəmiyyət həyatının və xalq təsərrüfatının heç bir sahəsinin insan dühasının və empirik təcrübənin sayəsində minilliklər ərzində toplanmış və bu gün insan təxəyyülünü belə qabaqlayan elmi biliklərin və onlardan qaynaqlanan texnika və texnologiyaların, innovasiyaların iştirakı olmadan tərəqqi edə bilməyəcəyini çox yaxşı bilirdi. Təsadüfi deyildir ki, Ümummilli Lider Azərbaycan SSR KP MK-nın 1969-cu ilin avqust ayında keçirilmiş məşhur plenumunda özünün uzunmüddətli inkişafa hesablanmış iqtisadi və idarəçilik proqramını elan edərkən respublikanın xalq təsərrüfatında elmin rolunun artırılmasını, həm fundamental, həm də tətbiqi elm sahələrinin, milli təhsil sisteminin inkişaf etdirilməsini, elm və təhsil adamlarına diqqət və qayğı göstərilməsini öz fəaliyyətinin başlıca istiqamətləri kimi göstərmiş, bütün sonrakı həyatını sədaqətlə bu ideallara xidmət etməyə sərf etmişdir.

Plenumdakı çıxışında Azərbaycanın yeni lideri deyirdi: "... Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər. Ölkəmizdə elmi işçilərin əməyi şərəflidir, onlara ehtiram göstərilir, onlar layiqli nüfuz qazanmışlar". Həmin tədbirdə Ulu Öndər, həmçinin elm adamları qarşısında proqram xarakterli vəzifələr qoymuşdu: "Elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda yaradıcı mübarizənin önündə getmək, tədqiqat nəticələrinin praktikada, istehsalatda tətbiqinə, mütərəqqi texniki yeniliklərin öyrənilməsinə öz əsərləri, kəşfləri, ideyaları ilə kömək etmək alimlərin borcudur".

Respublikada müxtəlif təsərrüfat sahələrinin dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsinin düzgün elmi yollarının müəyyənləşdirilməsi öz rəhbərlik fəaliyyətində ön plana çıxaran dahi lider Heydər Əliyev iqtisadiyyatın modernləşdirilməsi, sosial-iqtisadi, elmi-mədəni inkişafının təmin olunmasında elmi potensialın gücləndirilməsi və əldə edilən nailiyyətlərin tətbiqi, yeni ehtiyat mənbələrinin əsaslandırılması və istifadə edilməsi yolunu özünün fəaliyyət kredosu seçmişdi. Xarakterikdir ki, son 100 ildə böyük bir inkişaf yolu keçmiş Azərbaycan elmi və milli təhsil sistemi özünün ən yüksək səviyyəsinə 1960-cı illərin sonlarından başlayaraq çatıb. Məhz Ulu Öndərin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində 1970-ci illərdə ölkədə elmin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, Azərbaycan elmi kifayət qədər geniş dairədə tanıdılmış, elmi tədqiqatların istiqamətləri dünyada gedən tendensiyalara uyğun şəkildə genişləndirilib və problemlərin həllinə yönəldilib, elm və təhsil müəssisələrində çalışan hər kəs hərtərəfli qayğı ilə əhatə edilmişdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı keçmiş SSRİ-nin ən sanballı elm və təhsil mərkəzlərinin birinə çevirməyi bacarmışdı. 1969-cu ildə Azərbaycanda 89 elmi-tədqiqat institutu, 12 min 850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzv, 329 elmlər doktoru və 3000 elmlər namizədi var idisə, 1980-ci illərin əvvəllərində 123 elmi idarə və 17 ali məktəbdə 22 min elmi əməkdaş, o cümlədən Azərbaycan SSR EA-nın 56 həqiqi və 71 müxbir üzvü, 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı. 1970-1980-ci illərdə Azərbaycanda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı.

Ulu Öndərin hər zaman Elmlər Akademiyasına, onun elmi heyətinə xüsusi həssaslıqla yanaşması məlum həqiqətdir. Onun respublikaya rəhbərlik etdiyi və SSRİ rəhbərliyində təmsil olunduğu illərdə Azərbaycan Elmlər Akademiyası "Xalqlar dostluğu" ordeni (1995) ilə təltif olunub, Elmlər Akademiyasının əməkdaşları beynəlxalq yarmarkalarda, xalq təsərrüfatı sərgilərində qızıl medallara, dövlət və hökumət təltiflərinə, o cümlədən 5 Lenin, 14 SSRİ Dövlət, onlarla respublika Dövlət mükafatına layiq görülüb, bir neçə alim Sosialist Əməyi Qəhrəmanı adını almışdı. Müdrik Liderin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə 5 yeni ali təhsil müəssisəsi, onlarla kafedra, problem laboratoriyaları, yüzlərlə ixtisas açılıb, ali təhsilli şəxslərin sayı 70 mindən 100 minə qədər artmışdı. 1982-ci ildə 21 ali təhsil müəssisəsində 136 fakültə və 530 kafedra fəaliyyət göstərirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyi, yüksək təşəbbüskarlığı və gənclərə himayəsi nəticəsində 1970-80-ci illərdə 80-dən yuxarı sahəni əhatə edən 250-dən çox ixtisas üzrə on beş mindən artıq azərbaycanlı gənc (orta hesabla ildə 800, 1980-ci illərin əvvəllərindən başlayaraq hər il 1000-1400 nəfər) Bakıda imtahan verməklə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində təhsil almağa göndərilib, onlara güclü mütəxəssis kimi yetişmək üçün hər cür şərait yaradılmışdı. Bu proses unikal xarakter daşımaqla, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradılması demək idi. Heydər Əliyevin elmin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim kadrlarının hazırlığı ilə bağlı məqsədyönlü siyasətinin həyata keçirilməsində görkəmli alim və ictimai-siyasi xadim akademik Cəlal Əliyevin xidmətlərini mütləq qeyd etmək lazımdır. Bu böyük şəxsiyyətin elmi uzaqgörənliyi sayəsində Azərbaycanda biokimya, molekulyar biologiya, molekulyar genetika, biofizika, gen və hüceyrə biotexnologiyaları, riyazi biologiya, bioinformatika, kompüter biologiyası və s. kimi mühüm elmi istiqamətlərin təşəkkülü və inkişafı, müxtəlif elm sahələri üzrə savadlı mütəxəssislərin biologiya və aqrar elmlər üzrə tədqiqatlara cəlb olunması, kadrların hazırlanmasında keçmiş ittifaqın və uzaq xaricin tanınmış elm və təhsil mərkəzlərindən istifadə edilməsi öz bəhrəsini vermişdir. Cəlal Əliyevin yaratdığı böyük məktəbin nümayəndələri bu gün elmə ləyaqətlə xidmət edir, Azərbaycana dünya səviyyəsində nüfuz qazandırırlar.

Heydər Əliyev ümumxalq sevgisindən və xalq arasında böyük nüfuzundan istifadə edərək cəmiyyətin elm və təhsilə, elmi potensiala münasibətinə məqsədyönlü şəkildə müsbət təsir göstərir, "şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam ona görə ki, elm adamları müstəsna adamlardır", "Milli Elmlər Akademiyası Azərbaycan xalqının milli sərvətidir. Onu qoruyub saxlamalıyıq" kimi çıxış və çağırışları ilə ictimai fikri ustalıqla istiqamətləndirirdi.

Fitri istedadı, yüksək intellekti, dərin bilikləri və idarəçilik novatorluğu ilə dünya liderlərinə nümunə olan Ulu Öndər bütün məsələlərin həllinə hər zaman elmi cəhətdən əsaslandırılmaqla yanaşılmasını yeganə düzgün yol hesab edirdi. Bu baxımdan, milli və dövlətçilik tariximizin ən görkəmli simasının siyasi, iqtisadi-təsərrüfat, hüquqi dövlət quruculuğu, beynəlxalq və s. fəaliyyəti kifayət qədər elmtutumlu olmaqla özü də iri həcmli elmi tədqiqatların mövzusu ola bilər.

Müstəqillik dövründə xalqının çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər, ilk növbədə, alimlərlə görüşmüş, onların fikir və mövqelərini öyrənmiş, Elmlər Akademiyası ətrafında gedən söz-söhbətlərə də son qoymağa nail ola bilmişdi. O deyirdi: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, elm inkişaf etməlidir".

Hələ 1997-ci ildə Ulu Öndər Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını və bu müddəaları həyata keçirmək üçün lazımi vəzifələri qəti olaraq müəyyənləşdirib, elmlə bağlı mövqeyini ortaya qoymuşdu: "... Biz akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq, heç vaxt imkan verməməliyik ki, akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol verməməliyik. Azərbaycan Elmlər Akademiyası dövlətin akademiyasıdır. Prezidentin birbaşa himayəsi altındadır, tabeliyindədir və Prezidentin qarşısında cavabdehdir. Bir daha bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının müstəqil Elmlər Akademiyası Azərbaycanın ən yüksək elmi müəssisəsi, elmi təşkilatıdır...". Cəmiyyətə verilən bu mesajlar elmimizin nüfuzunu yenidən artırıb, akademik qurumların ölkənin inkişafında rolunu möhkəmləndirib. Ulu Öndərin 2001-ci il 15 may tarixli Fərmanı ilə Elmlər Akademiyasının adına "Milli" sözünün əlavə edilməsi də əlamətdar hadisə hesab edilə bilər. Onun təşəbbüsü ilə 2002-ci ildə AMEA-nın həqiqi və müxbir üzvlərinə aylıq rütbə maaşlarının verilməsinə başlanılıb. Son 30 ildə AMEA əməkdaşlarının, ümumən elm və təhsil işçilərinin sosial müdafiəsi üzrə əhəmiyyətli layihələr həyata keçirilib, onların vəzifə maaşları dəfələrlə artırılıb, elmi adlara görə ödəmələr təyin edilib. Heydər Əliyevin 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə AMEA-nın ali elmi qurum kimi statusu təsdiq edilib, yeni Nizamnaməsi təsdiqlənmişdir.

Ümummilli Liderin ölkədə elmin inkişafının dəstəklənməsi ilə bağlı uzaqgörənliklə verdiyi tövsiyələrini digər vəsiyyətləri kimi ardıcıl şəkildə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin elmə baxışlarına şəxsən yüksək qiymət verib, özünün də eyni baxışlara sahib olduğuna diqqət çəkmişdir: "Bütün dövrlərdə - 70-ci illərdə, ondan sonra, 90-cı illərdə Heydər Əliyevin elmə diqqəti və qayğısı çox yüksək səviyyədə idi. O, çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynayır. Müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, ... nə təbii ehtiyatlar, nə coğrafi vəziyyət yox, məhz intellektual potensial, məhz elmin səviyyəsi ölkələrin tərəqqisini müəyyən edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir Mən bir daha demək istəyirəm, bu, qəti fikrimdir ki, hər bir ölkənin normal inkişafı üçün, ilk növbədə, bilik, savad, elmin inkişafı lazımdır".

Məsələlərə məhz bu mövqedən yanaşan Prezident İlham Əliyev elmin idarə olunmasının və hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində Ulu Öndərin siyasətini daha da inkişaf etdirib. 2016-cı il iyunun 14-də Azərbaycanda elmin inkişafı istiqamətində yeni perspektivlər açan "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. 27 mart - Elm Gününün təsis olunması Azərbaycanın yüksəlişində elmin vacib rolunu bir daha təsdiq edib.

İnsan kapitalına, insan indekslərinin inkişafına investisiyaların qoyuluşu, biliklərə və süni intellektə əsaslanan informasiya cəmiyyətinin formalaşdırılması bu gün Azərbaycan dövlətinin elm siyasətinin başlıca strateji istiqamətlərindəndir. Ölkə Prezidentinin də dəfələrlə qeyd etdiyi kimi, müasir dünyanın reallıqları Azərbaycan elmi qarşısında tamamilə yeni vəzifələr qoyur. Yalnız mövcud elmi potensialı qorumaq və gücləndirməklə bu vəzifələrin öhdəsindən gəlmək olar.

Son bir neçə ildə Azərbaycan elmi yenidən dərin islahatlar və keçid dövrünü yaşamaqdadır. Ulu Öndərin və Prezident İlham Əliyevin diqqət və qayğısına, analoqu olmayan dövlət dəstəyinə elm və təhsil sektorunun, elmi ictimaiyyətin də layiqli şəkildə cavab verməsi, pandemiyaya qarşı davam edən mübarizədə, işğaldan azad edilmiş torpaqlara "Böyük Qayıdış"da, Azərbaycan dövlətçiliyinin yüksəlişi və inkişafı, təhlükəsizliyinin təmin olunması planlarının gerçəkləşdirilməsində, elmin və elm adamlarının ön sıralarda olması dövrün tələbidir. Qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən ən qısa zamanda uğurla gəlmək üçün elmimiz real potensiala, lazımi elmi-texniki və təşkilati resurslara malikdir. Bu potensialın və resursların təşəkkül və inkişafında Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul plenumu önəmli bir mərhələ kimi ölkə tarixinə qızıl hərflərlə yazılıb.

**İradə HÜSEYNOVA**
**AMEA-nın vitse-prezidenti, akademik**

# Akif Fərhad oğlu Musayev

**Görkəmli iqtisadçı alim, AMEA-nın İqtisadiyyat İnstitutunun Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü, professor Akif Fərhad oğlu Musayev iyul ayının 11-də 75 yaşında vəfat etmişdir.**



Akif Fərhad oğlu Musayev 1947-ci il iyulun 18-də Füzuli rayonunun Qorqan kəndində anadan olmuşdur. O, 1967-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunun (indiki İdarəetmə Sistemləri İnstitutu) İqtisadi-riyazi modellər laboratoriyasında çalışmaqla 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakultəsini bitirmişdir. 1972-1975-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmiş, 1977-ci ildə Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun ixtisaslaşmış elmi şurasında "İqtisadi-riyazi üsullar" ixtisası üzrə "Avtomobil nəqliyyatında növbəli gündəlik tapşırıqların effektliliyini operativ planlaşdırma üsulları ilə yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

A.Musayev 1976-1980-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunda baş elmi işçi vəzifəsində, 1980-1984-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Tətbiqi riyaziyyat kafedrasında baş müəllim, 1984-1991-ci illərdə dosent vəzifələrində çalışmış və həm o dövr üçün, həm də indi çox vacib sayılan "İqtisadiyyatda riyazi üsul və modellər", "Riyazi proqramlaşdırma", "Ekonometriya" fənlərinin tədris-metodiki təminatının yaradılması və tədrisi ilə məşğul olmuşdur. 1991-1999-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Sənayenin iqtisadiyyatı fakültəsi nəzdində Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment kafedrasına rəhbərlik etməklə yanaşı, müxtəlif iqtisadi fənlər üzrə mühazirələr oxumuş, seminarlar təşkil etmiş, elmi-tədqiqat işləri yerinə yetirmişdir.

A.Musayev 1992-ci ildə Tbilisi Dövlət Universitetinin ixtisaslaşmış elmi şurasında 05.00.08 - "Xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" ixtisası üzrə "Yeni təsərrüfatçılıq şəraitində neft maşınqayırma sənayesinin inkişafının idarə edilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1993-cü ildən professor, 2001-ci ildən isə iqtisadiyyat elmləri üzrə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü idi.

Akif Musayev 1999-cu ildən elmi-pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı, respublikanın vergi sistemində məsul rəhbər icti-mai-inzibati vəzifələrdə çalışmış, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru kimi çox böyük təşkilati elmi işləri həyata keçirmiş, 2002-2007-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində onun təşəbbüsü ilə yaradılmış məhsuldar tədqiqatçı-alim və mahir pedaqoq kimi Azərbaycanda vergilər sahəsində elmi məktəbin əsasını qoymuşdur. Onun elmi işləri Azərbaycanın vergi sisteminin elmi əsaslarının işlənib hazırlanması, tədrisi, onun dünya təcrübəsinə uyğunlaşdırılması sahəsində çevik maliyyə və vergi siyasətinə əsaslanan iqtisadiyyatın idarəolunan ekoloji modelinin yaradılmasına və bu problemlərin həllində iqtisadi-riyazi üsul və modellərin tətbiqinə mühüm töhfə olmuşdur.

AMEA-nın Kibernetika İnstitutunda 2001-ci ildə təşkil edilmiş Fiskal siyasətin iqtisadi-riyazi modelləşdirilməsi elmi-tədqiqat laboratoriyasına rəhbərlik etməklə Azərbaycan vergi sisteminin elmi bazasının yaradılması, Azərbaycan Milli Elmlər Akademiyasının, o cümlədən İdarəetmə Sistemləri İnstitutunun Azərbaycan Respublikası iqtisadiyyatının aktual problemlərinin həll edilməsinə cəlb edilməsi sahəsində çox səmərəli iş aparmışdır. 2017-ci ildən başlayaraq AMEA-nın Rəyasət Heyətinin qərarı ilə şöbə rəhbəri kimi fəaliyyətini AMEA-nın İqtisadiyyat İnstitutunda davam etdirən professor A.Musayev iqtisadi tədqiqatları ilə yanaşı, iqtisadi proses və tədqiqatların proqram və riyazi təminatı sahəsində müvafiq elmi-tədqiqat işlərinin uğurla davam etdirmişdir. 2021-ci ildən yeni yaradılan Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinə rəhbərlik edirdi

AMEA-nın müxbir üzvü, professor A.Musayev ümumilikdə 500-dən çox elmi əsərin, o cümlədən 10 monoqrafiyanın, 25 dərslik və dərs vəsaitinin, 12 fənn proqramının, 150 elmi məqalənin, 300-dən çox broşura, metodik göstəriş, elmi-populyar məqalənin, məruzənin və s. müəllifi idi. Əsərləri xarici ölkələrdə, o cümlədən Almaniyada, Rusiyada, İranda, Macarıstanda, İtaliyada, Latviyada, ABŞ-da və digər ölkələrdə çap olunmuş, bir çox beynəlxalq konfrans və simpoziumlarda dinlənilmişdir.

Professor Akif Musayev "Vergilər" qəzetinin, "Azərbaycanın Vergi Xəbərləri", Azərbaycan Respublikası Auditorlar Palatasının "İqtisadiyyat və audit", Bakı Biznes Universitetinin "Audit", "Türk Bilimi", "Türk Dünyası Riyaziyyatçılar İttifaqının" elmi jurnallarının redaksiya heyətinin üzvü kimi iqtisadiyyat elmi sahəsində aparılan elmi-tədqiqat işlərinin ictimaiyyətə çatdırılması, iqtisadi biliklərin populyarlaşdırılması sahəsində də məqsədyönlü iş aparırdı.

A.Musayev Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının üzvü kimi Azərbaycan Respublikasında özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizminin yaradılması və həyata keçirilməsi ilə bağlı tədbirlərin təşkilində yaxından iştirak etmişdir. Həmin illərdə müstəqil Azərbaycan dövlətində təhsilin, xüsusilə də özəl təhsilin təşkili və inkişafı sahəsində dövlət komissiyalarının üzvü olaraq, təhsilin, elmin inkişafının təmin edilməsi üçün normativ-hüquqi bazanın yaradılması, inkişaf proqramlarının hazırlanması üzrə işçi qrupların tərkibində çox səmərəli işlər görmüşdür. A.Musayevin bilavasitə iştirakı və təşəbbüsü ilə MDB məkanında ilk dəfə 2004-2005-ci tədris ilindən orta məktəblərin III sinfindən başlayaraq vergilər haqqında biliklər tədris proqramlarına daxil edilmişdir.

A.Musayev Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı Dövlət Universitetinin, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun nəzdində fəaliyyət göstərən ixtisaslaşmış elmi şuraların, eləcə də son dövrlərədək AAK Rəyasət Heyətinin üzvü kimi, həmçinin "İqtisadiyyat" üzrə respublika koordinasiya şurasının rəhbəri kimi, elmi-tədqiqat işlərinin ekspertizasında yaxından iştirak etməklə gənc alimlərin dissertasiya işlərinin müdafiələrində həmişə özünün prinsipial mövqeyi, obyektivliyi və qayğıkeşliyi ilə seçilmişdir. İndiyə qədər onlarla namizədlik və doktorluq dissertasiyalarına opponentlik etmiş və gənc alimlərin həyata vəsiqə almasına yardımçı olmuşdur.

Professor A.Musayev yüksəkixtisaslı elmi kadrların hazırlanmasında da səmərəli fəaliyyət göstərmişdir. Onun rəhbərliyi altında 36 nəfər, o cümlədən 4 nəfər xarici vətəndaş (İran İslam Respublikası, Türkiyə və Efiopiya) iqtisadiyyat üzrə fəlsəfə doktoru, 5 nəfər iqtisadiyyat üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişdir.

AMEA-nın müxbir üzvü, professor A.Musayev Dövlət Ali Ekspert Komissiyasının üzvü, təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının işçi qrupunun, Təhsil Nazirliyinin Lisenziya Komissiyasının, Milli Məclisin Elm-Təhsil məsələləri Daimi Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun üzvü kimi təhsil sisteminin formalaşmasında, onun normativ-hüquqi bazasının yaradılmasında çox böyük işlər görmüşdür. Onun Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının "İqtisadiyyat" bölməsinin rəhbəri kimi təhsil sisteminin tədris-metodiki təminatının yaradılması, dərslik, dərs vəsaiti, proqram və s.-lərin ekspertizası, qiymətləndirilməsi və Təhsil Nazirliyinin qrifinin verilməsi sahəsindəki fəaliyyəti xüsusilə təqdirə layiqdir. O, təhsil sistemində peşəkar kadr hazırlığında dərslik və fənn proqramlarının xüsusi əhəmiyyət daşıdığını nəzərə alaraq həmin sahədə uğurlu fəaliyyət göstərmişdir. Onun müəllifi olduğu, məsləhətçisi və redaktoru olduğu onlarla monoqrafiya, dərslik və dərs vəsaitləri, elmi və pedaqoji ictimaiyyət tərəfindən çox müsbət qarşılanmışdır. Professor A.Musayevin monoqrafiya və digər elmi əsərlərindən, tədqiqatçılar, mütəxəssislər, dərslik və dərs vəsaitlərindən isə respublikanın orta və ali məktəblərinin şagird, tələbə, aspirant və professor müəllim heyəti geniş istifadə etməkdədir.

Professor A.Musayevin iqtisadi kibernetika, qiymətli kağızlar bazarı, iqtisadi proqnozlaşdırmanın nəzəri məsələləri, vergi sisteminin inkişafı, ekonometrik üsullardan istifadə etməklə, vergi daxilolmalarının proqnozlaşdırılması, proqnozlaşdırmanın metodologiyasının hazırlanması, vergi siyasətinin səmərəliliyinin müəyyən edilməsində vergi yükünün rolu, iqtisadi inkişafda xəlvəti iqtisadiyyat problemi, vergi idarəçiliyi və onun təkmilləşdirilməsi, vergi islahatlarının investisiyaların cəlb olunmasına təsiri kimi elmi-tədqiqat işləri iqtisadiyyatda bir çox müasir problemlərin həllinə kömək etmişdir.

Professor A.Musayev Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın, Azərbaycan Respublikası hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli Sazişin icraçı komissiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə yaradılmış Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmasına hazırlıq işləri üzrə Komissiyanın üzvü olmuşdur. O, ölkəmizin maraqlarının təmin olunması, iqtisadi inkişafının sürətləndirilməsi və iqtisadi inteqrasiyasının dərinləşməsi sahəsində mühüm əhəmiyyətli bir çox işlərin yerinə yetirilməsində iştirak etmişdir. Professor A.Musayev Azərbaycanda İxracın və İnvestisiyaların təşviqi Fondunun (AZPROMA) Himayəçilər Şurasının, Azərbaycan Respublikasında yoxsulluğun azaldılması sahəsində dövlət proqramının hazırlanması üzrə komissiyasının işçi qrupunun üzvi kimi müstəqil dövlətimizin iqtisadi qüdrətinin artırılması, sahibkarlığın inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılması üçün bir iqtisadçı alim və peşəkar mütəxəssis kimi öz töhfəsini vermişdir.

O, AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi şurasının, Dissertasiya şurasının, bir sıra jurnalların redaksiya heyətinin üzvü, Gürcüstan Respublikasının Qafqaz Universitetinin Fəxri doktoru idi.

İqtisadçı alim Prezident İlham Əliyevin 9 fevral 2007-ci il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə medalı"na, 16 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb. Eyni zamanda müxtəlif illərdə AMEA-nın və Vergilər Nazirliyinin Fəxri fərmanları ilə təltif edilib.

Həmçinin Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyətləri tərəfindən dünya elm və təhsilinə verdiyi töhfələrə görə "Beynəlxalq Şərəf Diplomu" və "Görkəmli lider mükafatı" ilə təltif olunub.

Tanınmış alim, bacarıqlı elm təşkilatçısı, səmimi və qayğıkeş insan Akif Fərhad oğlu Musayevin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Akademik Arif Həşimov**
**Akademik İsa Həbibbəyli**
**Akademik İbrahim Quliyev**
**Akademik Dilqəm Tağıyev**
**Akademik Rasim Əliquliyev**
**Akademik Tofiq Nağıyev**
**Akademik Nərgiz Paşayeva**
**Akademik İradə Hüseynova**
**Akademik Gövhər Baxşəliyeva**
**Akademik Cəmil Əliyev**
**Akademik Adil Qəribov**
**Akademik Fikrət Əliyev**
**Akademik İsmayıl Hacıyev**
**Akademik Fuad Əliyev**

# Bir sıra ali təhsil müəssisələrinin əməkdaşları üçün "Horizon" proqramı çərçivəsində məlumat günü keçirilib



**AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin təşkilatçılığı ilə Bakı Slavyan Universitetində (BSU) Milli Əlaqələndirici Şəxslər (MƏŞ) Şəbəkəsinin bir qrup üzvü tərəfindən BSU-nun və Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşları üçün Avropa Komissiyasının "Horizon" Avropa Tədqiqat və İnnovasiya Proqramı üzrə məlumat günü keçirilib.**

Tədbiri BSU-nun rektoru Anar Nağıyev giriş sözü ilə açaraq "Horizon" Avropa və digər beynəlxalq proqramların əhəmiyyətini və Azərbaycan alimlərinin bu proqramda iştirakı üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycan Respublikası Təhsil nazirinin müşaviri Nicat Məmmədli Azərbaycanın təhsil müəssisələrində elmi tədqiqatların genişləndirilməsi istiqamətində aparılan işlərdən danışıb və universitetlərdə çalışan alimlərin beynəlxalq layihələrə qoşulma imkanlarının mövcudluğunu və belə əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.

Tədbirdə AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri dosent Esmira Əlirzayeva Azərbaycanın alim və mütəxəssislərinin "Horizon" proqramlarında iştirakı üzrə aparılan fəaliyyət istiqamətlərindən, onların nəticələri, tərkibi yenilənmiş Milli Əlaqələndiricilər Şəxslər Şəbəkəsi və onun üzvləri haqqında məlumat verib.

Rəqəmsal, sənaye və kosmos klasteri üzrə MƏŞ, AMEA İdarəetmə sistemləri İnstitutunun Xarici əlaqələr şöbəsinin müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru Tofiq Babayev "Horizon" Avropa proqramı üzrə klasterlər, prioritetlər, gözlənilən nəticələr, maliyyə imkanları və proqrama müraciət haqqında ətraflı məlumat verib, İKT üzrə bəzi çağırışları təqdim edib.

Avropa Tədqiqatları Mərkəzi və COST Fəaliyyəti üzrə MƏŞ, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Keyfiyyət təminatı departamentinin direktoru İlham Hümbətov COST Fəaliyyəti üzrə yenilikləri, proqram çərçivəsində layihələrə qoşulmaq qaydaları, Azərbaycan mütəxəssislərinin bu proqramda iştirakı üzrə statistik məlumatı diqqətə çatdırıb. O, həmçinin Avropa Tədqiqatları Mərkəzinin imkanları haqqında məlumat verib.

Marie Sklodovska-Küri fəaliyyəti üzrə MƏŞ, Azərbaycan Respublikası Təhsil nazirinin müşaviri Nicat Məmmədli bu proqramda fərdi və qrup şəklində tədqiqatlar, həmçinin doktorantura şəbəkələrinin yaradılması istiqaməti üçün mövcud imkanları, doktorantura və postdoktorantura səviyyəsində fərdi təqaüd təklifləri iştirakçıların diqqətinə çatdırıb. O, bu proqramın "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" ilə əlaqələndirilməsinin əhəmiyyətli olduğunu bildirib, Azərbaycanın təhsil müəssisələrində çalışan gənc və təcrübəli alimlərin Marie Sklodovska-Küri fəaliyyətinin imkanlarından istifadə üçün geniş potensiala malik olduğunu qeyd edib.

Mədəniyyət, yaradıcılıq və inkluziv cəmiyyət klasteri üzrə MƏŞ, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Elşən Əhmədov İnkluziv cəmiyyət istiqaməti üzrə çağırışları, onların geniş profilli olduğunu və Azərbaycanda aparılan işlər və prioritetlərlə uzlaşmasını, həmçinin proqrama müraciət üzrə təlimatları iştirakçıların diqqətinə çatdırıb. Həmin klaster üzrə MƏŞ, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin baş məsləhətçisi Elmar Rəsulov Mədəniyyət və yaradıcılıq istiqaməti üzrə çağırışları, bu istiqamətdə layihələrdən gözlənilən nəticələri, Azərbaycan üçün maraqlı ola biləcək sahələri təqdim edib.

Ərzaq, bioiqtisadiyyat, təbii ehtiyatlar, kənd təsərrüfatı və ətraf mühit klasteri üzrə MƏŞ, Bakı Dövlət Universitetinin Coğrafi Ekologiya fakültəsinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru Fərid Seyfullayev bu klaster üzrə hazırda açıq olan çağırışlar haqqında məlumat verib, onların ərzaq təhlükəsizliyi, biomüxtəlifliyin qorunması, bitki mənşəli təbii ehtiyatların biotibbdə tətbiqi, ətraf mühitin mühafizəsi kimi geniş mövzuları əhatə etdiyini diqqətə çatdırıb.

"Horizon" Avropa proqramı üzrə seminar və təlimlərin mütəmadi olaraq fərdi və kollektiv formalarda keçirilməsi təklif edilib.

# "Azərbaycan ədəbiyyatı tarixi" çoxcildliyi müzakirə olunub



**Azərbaycan Yazıçılar Birliyində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən hazırlanan on cildlik "Azərbaycan ədəbiyyatı tarixi" Xalq yazıçısı Anarın sədrliyi ilə müzakirə edilib.**

Müzakirəni Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açaraq Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanan on cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin nəşr edilməsini yüksək qiymətləndirdiyini bildirib. O, XX əsrdə hazırlanmış ədəbiyyat tarixlərinə salınmayan, daha çox türk xalqlarının ortaq mirası hesab edilən Yunus Əmrə, Pir Sultan Abdal kimi şairlərin bu çoxcildlikdə oçerk kimi yer almasını müsbət qiymətləndirib.

AMEA-nın vitse prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli on cildlik haqqında məruzə xarakterli çıxış edib. Akademik İsa Həbibbəyli tarixə nəzər salaraq, uzun illər ərzində Azərbaycan ədəbiyyatı tarixinin yazılması istiqamətində görülən işlərlə bağlı məlumat verib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun tarixi ənənəyə, milli və elmi maraqlara əsaslanaraq, 2014-cü ildən həyata keçirilməkdə olan yeni dövrləşdirmə konsepsiyası əsasında hazırlanan on cilddə Azərbaycan ədəbiyyatı tarixinin yazılması və nəşri prosesi ilə bağlı danışıb.

Akademik İsa Həbibbəyli artıq çap olunmuş yeddi cildlə bağlı sualları cavablandırıb və qeyd edib ki, hazırda nəşrə hazırlanan Sovet dövrü və müstəqillik dövrü Azərbaycan ədəbiyyatına aid olan VII və X cildlərlə bağlı nəzəri məsələlərin müzakirəsinə və bir sıra portret oçerklərin harada verilməsi ilə əlaqəli fikir mübadiləsinə ehtiyac var.

Müzakirədə təxmini son yüz ildə yaranmış ədəbiyyatımızdakı ideoloji istiqamətlər və onların təhlil prinsipləri, dövrlərin adlandırılması və portret oçerklərin müəyyənləşdirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

Xalq yazıçısı Elçin yazıçılarla belə bir müzakirənin təşkil edilməsinin yaxşı bir hadisə olduğunu qeyd edib. Məsələlərə öz münasibətini bildirməklə yanaşı, Xalq yazıçısı Elçin Azərbaycan ədəbiyyatşünaslığının və folklorşünaslıq elminin də tarixinin yazılmasının zəruri olduğunu bildirib. Ədəbiyyat İnstitutunun belə bir işi yerinə yetirməsinin vacibliyini qeyd edib.

Müzakirələrdə Xalq yazıçıları Anar, Elçin, Xalq şairi Nəriman Həsənzadə, akademik İsa Həbibbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli, AYB-nin əməkdaşı, filologiya elmləri doktoru Gülxani Pənah, AMEA-nın Rəyasət Heyəti aparatının İnformasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov və AYB Mətbuat xidmətinin rəhbəri Xəyal Rza iştirak ediblər.

Sonda çıxış edən Xalq yazıçısı Anar çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin müzakirəsinin Ədəbiyyat İnstitutundan kənarda ilk dəfə məhz Azərbaycan Yazıçılar Birliyində keçirilməsini yüksək qiymətləndirib. O, Azərbaycan ədəbiyyatı tarixinin yeni dövrləşdirilməsinin və bu konsepsiyaya uyğun olaraq yazılan çoxcildliyin nəşrə hazırlanmasını ədəbiyyatımızın çoxəsrlik tarixinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malik hadisə olduğunu vurğulayıb.

# Ömər Faiq Nemanzadənin 150 illik yubileyi elmi sessiya ilə qeyd edilib



**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ictimai xadim, publisist Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib.**

Sessiyanı AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli açaraq bildirib ki, Ömər Faiq Nemanzadə Molla Nəsrəddin ədəbi məktəbinin əsas yaradıcılarından, Cəlil Məmmədquluzadənin ən yaxın silahdaşlarından biri, Azərbaycanda milli mətbuatın və ictimai fikrin inkişafında böyük xidmətləri olan mütəfəkkirdir. Onun publisistikası "Molla Nəsrəddin"də olduğu kimi satirik olmasa da, XX əsrin əvvəlləri Azərbaycan publisistikasının qiymətli səhifələrindən biridir, bir çox hallarda elmi publisistikadır. Ömər Faiq Nemanzadənin publisistikasında dövrün ən mühüm məsələləri həm publisist baxımdan bir vətəndaş kimi, həm də elmi baxımdan bir ziyalı kimi qoyulub. Xüsusən ana dili uğrunda mübarizədə satirik tərəfdə bütün mollanəsrəddinçilər, elmi tərəfdə isə Ömər Faiq Nemanzadə dayanır. O, Azərbaycanda qadın azadlığı, Azərbaycan dili məsələsi, Azərbaycan milli-mənəvi varlığının azərbaycançılıq mövqeyindən meydana qoyulmasında nümunə göstərmişdir. Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadənin dostluğu "Şərqi-rus" qəzetindən başlanıb. Jurnalla mollanəsrəddinçilərin əlaqələndirilməsində Ömər Faiq Nemanzadə böyük körpü rolunu oynayıb. Mirzə Cəlillə çiyin-çiyinə çalışıb, onun ideallarına sona qədər sadiq qalıb.

"Həmin dövrlər "Molla Nəsrəddin" məktəbi vardı, amma elmi publisistika yeni formalaşırdı. O, Azərbaycanda elmi-analitik publisistikanı yaradanlardan biridir. Ömər Faiq Nemanzadənin əsərləri bir neçə dəfə çap olunub. Onun tədqiqi və əsərlərinin nəşri baxımından mərhum professor Şamil Qurbanovun xidmətlərini ayrıca qeyd etmək istəyirəm. İndi azərbaycançılıq işığında, açılan arxivləri də nəzərə alaraq onun haqqında yenidən yazmağa ehtiyac var. Ömər Faiq Nemanzadə haqqında fotoalbom monoqrafiyanın yaradılması lazımdır. Onun haqqında yenidən dissertasiya mövzusu verməyə, plan işinə salmağa ehtiyac vardır. Bugünkü sessiyaya Ömər Faiq Nemanzadəyə müstəqillik ideallarıı işığında yenidən qayıdış, yeni mərhələnin başlanğıcı kimi baxırıq", - deyə akademik əlavə edib.

Sessiyada tarix elmləri doktoru, professor Solmaz Tohidinin, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Səadət Vahabova və Gülbəniz Babayevanın məruzələri dinlənilib.

Qonaqlardan "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, professorlar Asif Hacılı, Sevda Süleymanova və İstanbul Universitetinin doktorantı, "Çapar" tarix dərgisinin baş redaktoru Dilqəm Əhməd, axıska türklərinin "Vətən" cəmiyyətinin sabiq sədri İsmayıl Rəhimov da sessiyanın mövzusuna uyğun çıxış ediblər.

Sessiyada Ömər Faiq Nemanzadənin nəvəsi Fuad Pepinov və ailə üzvü Çingiz Nemanzadə çıxış edərək böyük şəxsiyyətə verilən elmi dəyər üçün minnətdarlığını bildirib.

# Azərbaycan-Özbəkistan elmi əlaqələrinə həsr olunmuş sessiya

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Humanitar Elmlər Bölməsinin "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Özbəkistan səfəri və elmi əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsi" mövzusuna həsr edilmiş elmi sessiyası keçirilib.**

Elmi sessiyada Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov və Akademiyanın bir sıra müəssisələrinin baş direktorları və əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan səfəri və humanitar elmlər sahəsində əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsi haqqında ətraflı çıxış edib.

Akademik İsa Həbibbəyli çıxışında bildirib ki, hər il Akademiyanın institutlarında Azərbaycan-Özbəkistan münasibətlərinə aid konfranslar keçirilir, kitablar çap edilir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ilin iyun ayında Özbəkistana dövlət səfəri, orada imzalanan sənədlər, təşkil olunan yüksək səviyyəli qarşılanma mərasimləri Azərbaycan və Özbəkistan əlaqələrini tamamilə yeni tarixi mərhələ səviyyəsinə qaldırdı. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və min illər tarixi olan Azərbaycan-Özbəkistan çoxcəhətli əlaqələri Azərbaycan Prezidenti cənab İlham Əliyevin Özbəkistana səfəri və orada əldə olunan razılaşmalarla tamamilə fərqli istiqamətdə bundan sonra da inkişaf edəcəkdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dövlət səfəri zamanı göstərdiyi yüksək qonaqpərvərlik, Özbəkistanda Ulu Öndər Heydər Əliyevin adına parkın, küçənin, baralyefin açılması müasir Özbəkistan dövlətinin Azərbaycan Prezidentinə, Azərbaycan xalqına hörmət və ehtiramının bariz nümunəsidir. Eyni zamanda Bakıda Əlişir Nəvainin, Daşkənddə Nizami Gəncəvinin heykəlinin olması, hər il sizinlə bərabər orada tədbirlər keçirməyimiz bu qardaşlığın tarixi təməllər üzərində bugünkü səfərlə bağlı olaraq yeni mərhələyə çatdığını göstərir".



Bu istiqamətlər içərisində elmin də özünəməxsus yer tutduğunu deyən natiq cənab Prezidentin səfəri çərçivəsində AMEA-nın prezidenti v.i.e., akademik Arif Həşimovun Özbəkistan Elmlər Akademiyasının prezidenti Bexzod Yuldaşevlə birgə Azərbaycan-Özbəkistan Elmər akademiyaları arasında imzaladıqları müqavilənin elmi əlaqələrin daha intensiv şəkildə inkişaf etdirilməsinə böyük stimul verəcəyini söyləyib, həmin müqavilənin müstəqillik dövründə bu istiqamətdə imzalanan ilk sənəd olduğunu vurğulayıb.

"Xivədə keçirilən görüş xüsusi tarixi əhəmiyyətə mailkdir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidentinə Məhəmməd Füzulinin əlyazmasını hədiyyə etdi. Azərbaycanın əlyazmalar fondunda da Əlişir Nəvainin qiymətli əlyazmaları var. Hesab edirəm ki, cənab Prezidentin Özbəkistan səfərindən sonra qarşıda duran əsas məsələlərdən biri də Əlişir Nəvainin Azərbaycan kataloqunu hazırlamaq, Bakıda saxlanılan əlyazmalarını çap etmək qardaşlıq borcumuzun ifadəsidir. Özbəkistan-Azərbaycan əlaqələri Azərbaycan üçün strateji bir səviyyəyə gəlib çatmışdır. Bizim də borcumuz prezidentlərimizin atdığı addımlardan nümunə götürərək bu sahəni daha da inkişaf etdirməkdir. Ədəbiyyat İnstitutunda Əlişir Nəvai Mərkəzi fəaliyyət göstərir. İndi qarşımızda duran əsas məsələ Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı, Əlişir Nəvai və türk dünyası məsələlərini yenidən, daha sistemli öyrənməkdir. Bundan başqa, Azərbaycan xalqı heç vaxt unutmayacaq ki, müstəqilliyin ən çətin illərində Özbəkistan dövləti Özbəkistanda Ermənistanın səfirliyinin açılmağına razılıq vermədi. Bu gün də Daşkənddə Ermənistanın səfirliyi yoxdur. Bu, siyasi hakimiyyətin bütün dövrlərində Özbəkistan dövlətinin Azərbaycana münasibətini çox aydın ifadə edir. Bu gün isə prezidentlərimizin atdığı addımlar, ortaya qoyduğu mövqe dostluğumuzu ən yüksək səviyyəyə çatdırdı", - deyə akademik İsa Həbibbəyli bildirib.

Sonra Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana səfəri və elmi əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsinə aid elmi sessiyanın təşkil edilməsinə görə minnətdarlığını ifadə edib: "Özbəkistan və Azərbaycan münasibətlərində tarixi hadisə gerçəkləşdi. 21-22 iyun tarixlərində Azərbaycan Prezidenti İlham Əliyevin dövlət səfəri ilə iki dövlət arasında müxtəlif sahələri əhatə edən 20-yə yaxın sənəd imzalandı. Bunların hamısı mühümdür. Mədəniyyət və elm sahəsində olanları xüsusi vurğulamalıyıq".

Səfir Bahrom Aşrafxanov eyni zamanda bu günə qədər səfirliklə Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən tədbirləri xatırladaraq, bundan sonrakı əməkdaşlığımızın daha intensiv olacağını söyləyib.

Elmi sessiyada Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli "Azərbaycanda Özbək ədəbiyyatı əlyazmalarının tədqiqi və nəşri: dünəni, bu günü və sabahı", Memarlıq və İncəsənət İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Azərbaycan və Özbəkistan qarşılıqlı bədii əlaqələri: ənənələr və perspektivlər", Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli "Azərbaycanda Özbək dilinə həsr olunmuş tədqiqatlar və gələcək perspektivlər" və Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi "Azərbaycan nəvaişünaslığı: nailiyyətlər və vəzifələr" mövzusunda məruzələrlə çıxış ediblər.

# “Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı” mövzusunda II beynəlxalq konfrans





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və AMEA-nın Naxçıvan Bölməsinin təşkilatçılığı ilə “Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı” mövzusunda II beynəlxalq konfrans keçirilib.**

Konfransı giriş sözü ilə Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik elm adamlarını salamlayaraq bildirib ki, konfransın keçirilməsində əsas məqsəd Naxçıvanın tarixi keçmişi, mədəniyyəti, təbii ehtiyatları və müasir inkişafının ən aktual problemləri ilə bağlı aparılan əsaslı tədqiqatların beynəlxalq səviyyədə təqdim olunması, yeni araşdırmaların təhlil və müzakirə olunmasıdır. “Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı” II beynəlxalq konfransı qardaş Türkiyə Cümhuriyyətindən, Amerika Birləşmiş Ştatlarından olan tədqiqatçıların, Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarının, AMEA-nın Gəncə və Naxçıvan Bölmələrinin, həmçinin ölkənin müxtəlif elm və təhsil müəssisələrinin elmi əməkdaşlarının iştirakı ilə keçirilir.

Akademik çıxışı zamanı Naxçıvan bölgəsinin tarixin müxtəlif dönəmlərində Azərbaycanın dövlətçilik tarixində daşıdığı mühüm rolunu qeyd edərək arxeoloji araşdırmalar nəticəsində öyrənilmiş şəhər-dövlətlərdən başlayaraq, müxtəlif dövrlərdə tarix səhnəsinə çıxan Naxçıvanşahlıq, Atabəylər dövləti, Naxçıvan töməni, Naxçıvan xanlığı, Naxçıvan qəzası, Araz-Türk Cümhuriyyəti və Naxçıvan Muxtar Respublikası haqqında konfrans iştirakçılarını məlumatlandırıb. Qeyd olunub ki, yerləşdiyi mühüm təbii-coğrafi mövqeyi və strateji əhəmiyyəti sayəsində Naxçıvan bölgəsi tarixən Şərqin mühüm ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzlərindən biri olub.

“Ümummilli lider Heydər Əliyev hakimiyyətinin hər iki dövründə elmə, təhsilə, mədəniyyətə çox böyük önəm vermiş və onların inkişafına qayğı göstərmişdir”, - söyləyən akademik İsmayıl Hacıyev nəzərə çatdırıb ki, Naxçıvan Bölməsinin yaradılması da dahi rəhbərin elmə göstərdiyi qayğının daha bir ifadəsidir. Ulu öndərin elmin inkişafına, tariximizin və mədəniyyətimizin öyrənilməsinə göstərdiyi diqqət və qayğı bu gün ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvanda böyük elmi əhəmiyyətə malik beynəlxalq konfransın keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə elmin inkişafı daim diqqət mərkəzində saxlanılır, ümumazərbaycan tarixinin tərkib hissəsi olan regionların tarixinin, mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsinə, tədqiq olunmasına həssas münasibət göstərilir.

Akademik Azərbaycanın bugünkü inkişafının Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin nəticəsi olduğunu vurğulayıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini, əldə olunan nailiyyətlərin ölkənin gələcək inkişafından xəbər verdiyini bildirib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının muxtar respublikada uğurlu davamından söz açan bölmə rəhbəri əldə olunan hərtərəfli inkişafdan danışıb. Çıxışının sonunda İsmayıl Hacıyev qədim və müasir tariximizin, mədəniyyətimizin öyrənilməsinə göstərdiyi qayğıya, elm adamlarının fəaliyyətlərinə göstərilən dəstəyə, yaradılan şəraitə görə ölkə başçısı cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Plenar iclasda Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı “Atabəy Şəmsəddin Eldənizin Azərbaycanın cənub-qərb bölgəsində siyasi vəziyyəti dəyişdirən fəaliyyətinə dair”, Ərzurum Atatürk Universitetinin professoru, tarix elmləri doktoru Hüseyn Yurttaş “Naxçıvan abidələrinin türk-islam mədəniyyətində rolu”, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Abbas Seyidov “Kür-Araz mədəniyyəti problemləri Azərbaycanda son arxeoloji tədqiqatlar işığında”, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Naxçıvan tarixinin tarixşünaslığı (1991-2021)”, Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimov “Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafında müasir imkanlar” adlı məruzələr ediblər.

Qeyd edək ki, iki gün davam edəcək konfrans ənənəvi və onlayn qaydada keçirilir.

Plenar iclasın ardından konfrans “Naxçıvan Muxtar Respublikasının tarixi və arxeologiyası”, “Naxçıvan Muxtar Respublikasında elm, ədəbiyyat, folklor və mədəniyyət”, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, təbii ehtiyatları” və “Naxçıvan Muxtar Respublikasının flora və faunası” başlıqlı bölmə iclaslarında işini davam etdirib.

# Lənkəran Regional Elmi Mərkəzinin Elmi şurasının iclası keçirilib



**AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin Elmi şurasının növbəti iclası keçirilib.**

Tədbiri giriş sözü ilə mərkəzin baş direktoru, professor Fərman Quliyev açaraq Elmi şuranın yeni tərkibinin və iş planının təsdiqi,eləcə də Ekspert şurasının yaradılması barədə məlumat verib. Hər iki məsələ müzakirələrdən sonra təsdiq edilib.

Sonra mərkəzin elmi işlər üzrə direktor müavini, Herontoloji tədqiqatlar şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Sevinc Hüseynova “Lənkəran və Astara rayonlarında uzunömürlülərin tədqiqinin vəziyyəti” mövzusunda hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, hesabat dövründə 5 rayonda - Lənkəran, Astara, Masallı, Lerik və Yardımlıda uzunömürlülərin siyahısı tərtib olunub, sorğu anketi hazırlanıb, məlumat bankı yaradılıb. Natiq, həmçinin indiyədək aparılan tədqiqat işləri zamanı əldə edilən spesifik nəticələri iclas iştirakçılarının nəzərinə çatdırıb. Məruzə ətrafında şuranın üzvlərindən texnika elmləri üzrə fəlsəfə doktoru İltifat Kərimov, tarix üzrə fəlsəfə doktoru Mayis Cəfərov və başqaları çıxış edib, sual və təkliflərini bildiriblər.

Müzakirələrdən sonra hesabat müsbət dəyərləndirilib. Sonda cari məsələlər müzakirə edilib.

# Arxeoloq alimlər Şamaxı abidələrində tədqiqat aparırlar

**AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru, professor Abbas Seyidov Şamaxı rayonu ərazisində yerləşən bir neçə abidənin bugünkü durumu ilə tanış olub.**



Şamaxı - Buğurd qalası - Gülüstan qalası arxeoloji ekspedisiyasının rəhbəri, dosent Akif Quliyev gələcək tədqiqatların istiqaməti və əhəmiyyəti haqqında məlumat verib.

Alimlər əvvəl Pirsaat kurqanları yerləşən əraziyə baxış keçiriblər. Sonra Gülüstan qalasında olublar. Son dayanacaq isə orta əsr Şamaxı şəhərinin qala qapısı və divarlarının qalıqları olub. Burada gələcək tədqiqat işlərinin hansı sahələrdə aparılmasına dair fikir mübadiləsi aparılıb.

# Gəncədə dövri elmi nəşr işinin dünəni, bu günü və sabahı

## Akademik Fuad Əliyev: “AMEA Gəncə Bölməsinin “Xəbərlər məcmuəsi” və “Nizamişünaslıq” jurnallarında dərc olunan məqalə müəlliflərindən 814 nəfərinin müdafiə etməsi qürurverici haldır”

**Müasir dövlətçiliyimizin memarı, Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi ilk günlərdən respublikanın dirçəldilməsi və gələcək tərəqqisi üçün ən vacib şərtlər sırasında cəmiyyətin elmi potensialının yüksəldilməsi, elmin bütün istiqamətlərinin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirib. O, Azərbaycanın rəhbəri kimi ilk proqram çıxışında, 1969-cu ilin avqust plenumunda respublika elminin inkişafında yaranmış vəziyyəti xarakterizə edərkən, “Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər...” - deməklə, bu sahədə ciddi islahatların və bununla da gələcəyə yönəlik strateji xəttin zəruriliyini vurğulayıb.**




21-ci əsrin ilk illərində isə Heydər Əliyevin 15 may 2001-ci il tarixdə imzaladığı “Azərbaycan Milli Elmlər Akademiyası haqqında” Fərmanla Azərbaycan Elmlər Akademiyasına “Milli Elmlər Akademiyası” kimi yüksək ali dövlət elmi-təşkilati statusu verməsi də bu strateji düşüncənin parlaq nəticələrindən idi.

Hələ sovet dövründə Respublikanın ikinci şəhəri Gəncədə Elmlər Akademiyasının çoxşaxəli bölməsinin yaradılması ideyası da Heydər Əliyevin hər an gələcəyi nəzərə alan düşüncəsinin məhsulu idi.

Bu haqda öz fikirlərini bölüşən, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev rəhbərlik etdiyi elm ocağının təşəkkül mərhələlərindən də danışıb.

“Ulu Öndər Heydər Əliyev tərəfindən bu elm ocağının yaranma ideyasının əsaslandırılması və qırx il bundan qabaq, 1981-ci ilin may ayının 28-də onun şəxsi iştirakı ilə açılması bu Böyük Strateqin ölkəmizin, onun bölgələrinin tərəqqisi naminə düşüncə və fəaliyyətinin neçə-neçə tarixi nümunələrindən biridir. Ümummilli Liderin dövlətimiz və xalqımız üçün aydınlaşdırdığı inkişaf yolunu müasir dövrümüzdə müzəffər Prezidentimiz İlham Əliyev müvəffəqiyyətlə, daha böyük yaradıcı enerji ilə davam etdirir. Ölkə rəhbərinin 19 dekabr 2012-ci il tarixli Sərəncamı ilə Gəncədəki elmi mərkəz Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinə çevrildi. AMEA Gəncə Bölməsinin və onun institut və digər elmi təsisatlarının yaradılması alim və mütəxəssislərimizin qarşısında Respublikamızın inkişafına töhfə vermək üçün daha böyük hədəflər və məsuliyyət qoydu. Hazırda Gəncə Bölməsinin tabeliyindəki institut və digər tədqiqat ocaqlarında aktual elmi-texniki, iqtisadi, ekoloji məsələlərin həllinə, mənəvi dünyamızın tərəqqisinə xidmət edən işlər aparılır. Təbii ki, Gəncədəki bu elm ocağının inkişaf yolunun müəyyən mərhələlərində onun elmi nəşrlərinin yaranması da vacib məsələ idi” - deyə, akademik Fuad Əliyev bildirib.

Beləliklə, yerlərdə elmi fəaliyyətin imkanlarının yüksəldilməsi məqsədilə, AMEA Rəyasət Heyətinin 29 iyun 1995-ci il tarixli Qərarı ilə paytaxdan kənarda ilk dəfə olaraq elmi xarakterli dövrü nəşr - o vaxt Gəncə Regional Elmi Mərkəzin “Xəbərlər məcmuəsi” jurnalı təsis edildi.

İlk buraxılışı 1998-ci ildə çıxan məcmuənin indiyədək 85 nömrəsi işıq üzü görüb.

“Jurnalın təsis olunmasında məqsəd, regionda aparılan elmi-tədqiqat işlərinin koordinasiyası, gənc elmi kadrların hazırlanması, elmin ayrı-ayrı sahələri üzrə çalışan tədqiqatçılara məqalələrini çap etdirmək üçün imkan yaradılması olub. Bunun nəticəsidir ki, jurnalın yarandığı gündən indiyədək, onun səhifələrində müxtəlif elmi mövzuda məaqlələri ilə çıxış etmiş 814 tədqiqatçı öz dissertasiya işlərini müvəffəqiyyətlə müdafiə ediblər. Bu, qürurverici bir haldır” - deyə, akademik F.Əliyev bildirib.

Gəncədə çıxan “Xəbərlər Məcmuəsi” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 4 iyun 2004-cü il tarixli Qərarı ilə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilib.

“2020-ci ildən Gəncə Bölməsinin “Xəbərlər məcmuəsi” Ali Atesstasiya Komissiyasının qərarı ilə kimya, texnika, pedaqogika, fəlsəfə və sosiologiya elm sahələri üzrə, 2021-ci ildən etibarən isə ənənəvi elm sahələri ilə yanaşı, ilk dəfə olaraq tarix və antropologiya elmləri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil olub. Məcmuə Qərb bölgəsi üzrə aparılan elmi-tədqiqat işlərinin koordinatoru vəzifəsini yerinə yetirir. Belə ki, burada Gəncə şəhərində fəaliyyət göstərən 5 elmi-tədqiqat institutu və 3 universitetin alim və pedaqoqlarının, dissertant və elmi işçilərinin məqalələri nəşr olunur. İndiyədək jurnal “Təbiət və biologiya”, “Kimya və ekologiya”, “Kənd təsərrüfatı”, “Riyaziyyat”, “İqtisadiyyat”, “İctimai elmlər”və “Fəlsəfə” seriyaları üzrə nəşr olunub. Yarandığı vaxtdan, 1998-ci ildən 2002-ci ilədək məcmuə ildə 1 dəfə, 2002-ci ildə isə 2 dəfə çıxırdısa, 2005-ci ildən artıq ildə 4 dəfə nəşr olunur. Məcmuədə müəlliflər tərəfindən təqdim olunan və heç bir yerdə çap edilməmiş, elmin müxtəlif sahələrini əhatə edən yığcam yazılmış Azərbaycan, rus və ingilis dillərində orijinal elmi məqalələr çap olunur. Jurnal respublikanın müvafiq institut və kitabxanalarına, həmçinin müəlliflərə göndərilir” - deyə, jurnalın məsul katibi, kimya üzrə fəlsəfə doktoru Mahirə Şərifova bildirib.

AMEA Gəncə Bölməsinin “Xəbərlər məcmuəsi” jurnalı 4 elmi istiqamət üzrə çap olunur. 2022-ci il ərzində “Təbiət və texniki elmlər” və “İctimai və humanitar elmlər” seriyalarının hər birinin iki nömrəsi çıxıb.

Bu günədək 85 nömrəsi çıxmış məcmuədə ümumən 941 nəfərin 1337 məqaləsi çap olunub. Məqalələri çap edilmiş müəlliflər 56 yerli və 6 xarici elmi qurum və universitetlərin təmsilçiləridir.

2011-ci ildən AMEA Rəyasət Heyətinin 04 fevral 7/1 №li Qərarına əsasən, həmçinin Gəncə Şəhər İcra Hakimiyyətinin tövsiyəsi ilə Gəncə Regional Elmi Mərkəz tərəfindən Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi münasibəti ilə “Nizamişünaslıq” jurnalı nəşr edilməyə başladı. Əsas funksiyası nizamişünaslıq elminin koordinasiyası olan bu jurnalda ölkəmizdə və xaricdə bu sahədə fəaliyyət göstərən tanınmış alimlərin fundamental elmi araşdırmaları yer alır. Jurnalın baş redaktoru əməkdar elm xadimi, professor Xəlil Yusiflidir” - deyə, jurnalın məsul katibi, elm üzrə Prezident mükafatçısı Elnur Həsənov bildirib.

AMEA Gəncə Bölməsinin jurnallarının nəşr qaydaları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi jurnallar qarşısında qoyduğu tələblərə və bu sahədəki beynəlxalq standartlara uyğundur.

***AMEA Gəncə Bölməsinin informasiya qrupu***

# Zəngəzur faciələrinin dolğun bədii salnaməsi

## Unudulmaz ədibimiz Əyyub Abbasovun "Zəngəzur" romanı yeni baxış müstəvisində

**Yaradıcılığa şeirlə başlayan, uzun müddət publisistikası ilə diqqət çəkən, uşaqlar üçün maraqlı əsərlər yazan Əyyub Abbasov adlı bir yazıçımız olub. Bu ədib nəinki onu oxuyanların, tanıyanların yaddaşında, eləcə də Azərbaycan ədəbiyyatında özünün ilk və son əsəri olan "Zəngəzur" adlı iki cildlik romanı ilə möhtəşəm yer tutub. Təəssüf ki, onun barəsində indiki nəslin o qədər də məlumatı yoxdur. Çünki ötən əsrin ortalarında vəfat edən Əyyub Abbasov layiqincə təbliğ edilməyib.**






Bir neçə dəfə onun barəsində yazmışam. Amma həmişə içimdə bir narahatlıq olub. Ədəbi irsini daim araşdırmağa çalışmışam. Vaxtı ilə onun haqqında yazılmış materialları, məqalələri, hətta donosları belə oxudum. Şəxsi işi ilə tanış oldum. Cəmi 52 il ömür sürmüş yazıçının həyatı çox keşməkeşli olub. Təsəvvürə gətirin ki, erməni-müsəlman toqquşmasının ən tufanlı çağında - 1905-ci ildə Zəngəzur mahalının Şəki kəndində dünyaya gəlib. Valideynlərini, bacıqardaşlarını, bütövlükdə nəslini bu davada itirmiş Əyyub Abbasov bir müddət Naxçıvanda xeyirxah insanların himayəsində yaşayıb, oxuyub və sonradan taleyini Bakıya, paytaxtın ədəbi mühitinə bağlayıb. Yarım əsrlik bir ömürdə hansı müsibətləri görməyib. Lap kiçik yaşlarından gəncliyinə kimi Zəngəzurda törədilən faciələrin şahidi olub. 1937-ci ildə Stalin-Bağırov cütlüyünün əməllərini görüb. II Dünya savaşında soyuq səngərlərdə faşistlərə qarşı vuruşub.

Onu narahat edən, qəlbən incidən Zəngəzur hadisələri ilə bağlı əsər üzərində işləməyə başlayıb. Müəllifin "Zəngəzur" romanının I cildi 1956-cı, II cildi 1957-ci ildə çap olunub. Elə həmin ilin dekabrında da Əyyub Abbasov vəfat edib. Onu tanıyan həmkarlarının bəziləri ilə söhbət edərkən Əyyub Abbasovun ölümü ilə maraqlandım. "İşə gedərkən qəflətən ürəktutmasından keçinib" dedilər. Ölümünün müəmmalı olması aydındı. Çünki həmin illərdə xalqlar dostluğunun "carçısı" olan bəzi yazıçıların Əyyub Abbasovla bağlı şikayət məktublarını oxumuşdum. O yazılarda bildirilirdi ki, Əyyub Abbasov erməni-azərbaycanlı dostluğuna kölgə salır. Təəssüflər olsun...

Xəyalım yenidən Zəngəzura qanadlandı. Yadıma uşaq vaxtı evimizdə (Zəngəzurda - Urud kəndində), daha doğrusu, anbar kimi istifadə etdiyimiz otaqda yerləşən qutunun içində gördüyüm bir neçə kitab düşdü. Onların arasında Əyyub Abbasovun "Zəngəzur" romanı da var idi. Uşaq marağı ilə onu oxuyarkən kitabxanaçı bacımdan xəbər aldım ki, niyə bu kitablar ora atılıb, rəfə qoyulmayıb? Qəribə bir cavab verdi ki, heç mən də bilmirəm, Ermənistanda bütün kitabxanalardan onu çıxarıblar. O dövrün qanununa görə akt olunmuş kitablar mütləq yandırılmalı idi. Bacım isə onları gizlicə evə gətirmişdi. Universitetdə oxuyanda müəllimimiz - unudulmaz tənqidçimiz Qulu Xəlilov bizə XX əsr Azərbaycan ədəbiyyatından dərs deyirdi. Azərbaycan romanının inkişaf tarixindən söz açan zaman Əyyub Abbasovun romanından geniş və ətraflı danışdı: "O, uzun müddət şeirlər, pyeslər də yazmışdı, lakin bu əsərlərin heç biri "Zəngəzur" qədər müəllifinə rəğbət doğurmamışdı. Erməni-Azərbaycan xalqlarının dostluğu "Zəngəzur"dakı qədər geniş, epik lövhələrlə təsvir edilməmişdir". Bəs onda bu kitab Ermənistanda kitabxanalardan niyə yığışdırılmışdı? O vaxtdan məni düşündürən suallara məhz Zəngəzur işğal edildikdən - elimiz doğma yurddan çıxarıldıqdan sonra dəqiq cavab tapmağa çalışdım. "Zəngəzur"u təkrar oxudum. Bir daha bəzi qaranlıq mətləblər mənim üçün aydınlaşdı. Zəngəzur qırğınları "Zəngəzur" romanında son dərəcə ətraflı və geniş şəkildə öz əksini tapıb. Müəllif təkcə baş verən qırğınların bədii təsvirini verməklə kifayətlənməyib, bəzən açıq, bəzən də üstüörtülü şəkildə daşnakların məkrli siyasətinin "haradan start götürdüyünü" ustalıqla qələmə alıb.

"Zəngəzur"un qiymətli cəhətlərindən biri də budur ki, müəllif o bölgədə baş vermiş hadisələrin şahidi olan bir adam kimi məhz öz başına gələnləri oxucuya danışır. Daşnakların alçaq niyyətlərini həyata keçirməyə can atan Andranik, Karo, Nijde kimilərinin mürtəce və qaniçən əməllərini ifşa edib. Kitabı oxuduqca sanki bir tarixi salnamənin vərəqlərini nəzərdən keçirirsən.

Andranik öz qoşunu ilə Zəngəzura daxil olmağa hazırlaşanda ermənilərlə görüşür: "Elindən, obasından ayrı düşmüş ermənilər! Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdahanda, Qarsda, Sarıqamışda qoydunuz. Sizi qaçqın edən türklərdən Türkiyədə intiqam ala bilmədinizsə, mən onu Qafqazda, bax bu Zəngəzurda alacağam". Sonra da o, belə bir qanlı plan qurur: "Müsəlman kəndlərinin biri də salamat qalmamalıdır". Bu tarixi fakt da məlumdur ki, Andranikin qoşunları Zəngəzurda azərbaycanlıların yaşadığı 15 min kəndi talan edərək yandırıb. Bu tayqulaq quldurun bircə məqsədi, ideyası olub və bunu da həyasızcasına bəyan edib: "Türkü öldürmək cinayət deyil, qəhrəmanlıqdır". Və yaxud da: "Mən Andranikəm! Axırıncı soldatım qalanı kimi türklərə qarşı vuruşacam".

Əyyub Abbasov yazırdı ki, Andranikin cinayət hərəkətlərinə mane olmayan, əksinə, müsəlman kəndlərinin dağıdılmasında ona haqq qazandıran daşnaklar sadə erməniləri, yəni Andranikə tabe olmayanları "siz erməni deyilsiniz, millət xainisiniz, dəstəmizə qoşulmasanız, türklər sizi qıracaq" -deyə hədələyirdilər.

...Bir erməni evində qonaqlıqdır. Keşiş sağlıq deyir: "O ermənilərin sağlığına içək ki, cəbhədə türklərə qarşı vuruşur. Türklər bizim ata-baba düşmənlərimizdir. Ərdahandan, Vandan, Qarsdan nə qədər erməni qaçqını qaçıb Zəngəzura gəlmişdir". Təbii ki, bir millətin din xadimi belə danışandan sonra adisi də qırmalı, yandırmalı idi.

Yenə romandan: "Tanrı Andranikin külünü göyə sovursun, bizi yurdumuzdan elədi... - deyə şəkili Nəbi dərindən bir ah çəkdi..." Andranikin Zəngəzurda törətdiyi faciələri Əyyub Abbasov gözləri ilə gördüyündən o müsibəti olduğu kimi qələmə almışdı. "1919-cu ilin yazıdır. Malını, pulunu özü ilə aparmağa müvəffəq olmuş dövlətlilər istisna olmaqla, Zəngəzur qaçqınlarının güzəranı getdikcə pisləşirdi. Minlərlə insan səfalət içində idi. Onların əkməyə torpaqları, yeməyə çörəkləri, geyməyə paltarları yox idi. Boğazlarına keçmiş fəlakət zəncirini qırıb atmağa heç bir yol və imkan tapa bilmirdilər. On aydan artıq idi ki, Zəngəzur qaçqınları fəlakət içində çırpınırdılar. Hamı yandırılmış, viran edilmiş kəndlərinin, yurd-yuvalarının həsrətində idi. Lakin daşnakların hökmranlıq etdikləri bir torpağa qayıtmaq mümkün deyildi".

Talesizliyə bax ki, tarix təkrar olunub. Demək olar ki, məzmun eynidir, dəyişən formadır. Ötən əsrin əvvəllərində törədilən vəhşiliklər həmin əsrin sonlarında eyni dəhşətlə təkrarlandı. "Zəngəzur" romanını yenidən vərəqləyirəm. Erməni generalı Karo Hamparsumyanın bəyanatından sətirlər: "Bu yaxınlarda qoşunumuz hücuma keçəcək. Sərhədimizə yaxın olan müsəlman kəndlərini götürəcəyik. Planımız belədir ki, tezliklə Qarabağa girək. Vediyə, onun ətrafındakı kəndlərə yaxşı divan tutmuşuq. İndi o kəndlər də erməni qardaşlarımızın əlindədir. Ölən ölüb, sağ qalan müsəlmanlar isə İrana, Naxçıvana qaçıblar. Belə bir danışıq da var ki, İrandakı qoşun Naxçıvana hücum eləsin".

Zəngəzur kəndlərini talan edib, əhalisini fəlakətlərə salan Andraniki hamı tanıyırdı. Ancaq qan tökmək fikrini heç vaxt başından çıxarmayan bu tayqulaq "dığa" müharibə üçün yeni yollar axtarırdı. Bu barədə yenə də "Zəngəzur"da oxuyuruq ki, bolşevik Vahan daşnak Andraniki hədələyir: "Türklər Bakını işğal ediblər, Qarabağa çatıblar, xəbəriniz varmı?! Əgər onlar Zəngəzura girə bilsələr, sizin külünüzü göyə sovuracaqlar". Türklərin gəlişindən vahimələnən Andranik "mənim son yerim Sisiandır" - desə də bu dəfə başının qorxusundan Zəngəzuru tərk etməyə məcbur olmuşdu. Əyyub Abbasov yazırdı: "Andronik ingilislərə pənah gətirmək üçün İrana keçmişdir".

Doğrudur, "Zəngəzur" romanı çapdan çıxdıqdan sonra ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdı. Xüsusilə erməni-müsəlman toqquşmasında daşnakların xalqımızın başına gətirdiyi zülmləri görən insanlar müəllifin əsərini məhəbbətlə qarşılamışlar. Qəribədir ki, Bakıda çıxan "Qrakan Adrbecan" ("Ədəbi Azərbaycan") jurnalında (Ermənistanda isə Azərbaycan dilində belə bir ədəbi jurnal nəşr edilmirdi - F.X.) A. Balayan adlı birisi bu əsəri tərifləyərək onu "Xalqlar dostluğu haqqında roman" adlandırmışdı. Amma yazısının bir yerində qeyd etməmişdi ki, müəllif azərbaycanlılara qan udduran, onları minbir zülmlə qətlə yetirən cinayətkar Andranikin vəhşi simasını necə bacarıqla açıb. Halbuki bu əsərdən danışanda tayqulaq "dığa"nın qanlı obrazını görməmək qeyri-mümkün idi və ona görə də Ermənistanda "Zəngəzur" kitabxanalardan yoxa çıxarılmışdı. Bakıda isə əksinə, vazgenlərin, ohanyanların, kaputikyanların, tumanyanların kitablarını böyük məmnuniyyətlə çap edirdilər. Tarix boyu ermənilər bizim unutqanlığımızdan öz məqsədləri üçün fəndgirliklə istifadə ediblər. Doğrudur, ötən əsrin ortalarında Azərbaycan mətbuatında "Zəngəzur" haqqında müsbət məqalələr dərc olunub. Amma nədənsə bir kimsə bu kitabın Ermənistanda yaratdığı əks-səda ilə maraqlanmayıb. Kitabı təhlilə çəkən tənqidçilərimiz də əsasən, iki xalqın dostluğundan, sadə ermənilərin mehribanlığından, sədaqətindən söz açıblar. Əsas mövzunun üstündən sükutla keçiblər. Təbii ki, o dövrün qanun-qaydaları elə idi ki, "Zəngəzur"un sovet boyunduruğundan salamat çıxması üçün müəllif əsərində dostluq, qonşuluq motivlərinə geniş yer verməli idi. Əslində elə müharibəni pisləmək, fitnə-fəsada bais olanları tənqid etmək hər bir yazıçının vəzifəsidir, mənəvi borcudur. Bu mənada Əyyub Abbasov bütün xalqların sülh, əmin-amanlıq şəraitində yaşamasını arzulayırdı. O bilirdi ki, öz millətini qırğına, fəsada, cinayətə təhrik edən birinci növbədə elə öz xalqının düşmənidir. Yazıçı fakt və dəlillərlə, eləcə də öz gözlərilə gördüyü hadisələrin köməyi ilə daşnaqların iç üzünü açaraq, ermənilərin məkrli siyasətlərini sərrast qamçılayaraq, rəzil sifətlərini realist lövhələrlə bütün millətlərə təqdim edib. Dinc əhaliyə divan tutan, qadınların kürəyinə samovar bağlayan, körpələri süngiyə keçirən, göz çıxardan, baş kəsən, ev dağıdan andraniklər doğrudanmı, qəhrəmandır? Erməni xalqı belə rəzillərmi öyünür və fəxr edir? Əyyub Abbasov məşhur romanında, bax bu haqlı sualların cavablarını istəyirdi.

Yenə də romanı vərəqləyək. Orada bir obrazın dilindən səslənən sözlərə fikir verək: "Sözümün canı bundadır ki, gərək Şimal tərəfdən üstümüzə axıb gələn selin qabağını alaq! Bəli, bulanıq selin..." Çox incə siyasətlə qələmə alınan bu sözlərlə yazıçı hansı mətləbləri pıçıldayırdı, indi məlumdur. Təəssüf ki, o bəlanın qarşısı alınmadı. Bunun da hesabına bolşevik bayrağı altında Zəngəzurda talanlar başlandı. Və o talanların da nəticəsində Zəngəzur ermənilərin pəncəsinə keçdi. Kitabda bir haşiyə var: "İndi bizim yerlərdə yazdır, çöl, bayır göyərib, ağaclar yarpaqlayıb, çayın, bulaqların qıraqlarında yarpızlar baş qaldırıb. Eh, görəsən, mənim ev-eşiyim hansı zalıma qismət oldu? Görəsən, qızılgüllərimi qırıb tələf etmədilər ki?! Biz kəndə qayıtsaq, ermənilər hər kəsin evini, torpağını özünə verəcəklərmi?! ...Andranik kökümüzün üstündə od qaladı. Allah baisin evini başına uçursun, axı biz ermənilərə nə eləmişdik? Niyə məxluqu yerindən, yurdundan elədilər?!" Adamın inanmağı gəlmir ki, bu kəlmələr 1913-cü ilin aprel ayında səfalət içində yaşayan bir insanın dilindən qopur. Çünki indi yüzlərlə soydaşımızın ürəyi məhz belə ağrı-acı içində döyünür.

Mərhum tənqidçi Məsud Əlioğlu yazırdı ki, romanda təsvir olunan Zəngəzur coğrafi mövqeyi, ərazi etibarilə Azərbaycanla Ermənistanın birləşdiyi yerdə yerləşir. Bura bir növ dağlar ölkəsidir. Sıldırım qayaları, yaşıl yamacları, zəngin təbii füsunkarlığı ilə fərqlənən bu yerdə yaşayan əhalinin təbiəti də öz gözəlliyi ilə seçilir. Hayıf ki, o gözəl təbiətli insanlar o dilbər guşələri bir daha itirdilər. Bais təkcə ermənilərin rəzilliyi, məkrli siyasəti deyildi. Onların at oynatmağına meydan verən, imkan yaradan səbəblərdən ən əsası bəlkə də bizim unutqanlığımız, həddən artıq humanist, böyük ürək sahibi olmağımız, bir sözlə, ilanı quzu donunda görməyimizdir.

İndi bir qərinədən artıqdır ki, biz doğma yerlərimizə, yurdumuza - Zəngəzura həsrətik. Amma artıq o ümidsizliyə son qoyulub. Dövlətimizin başçısının Dəmir Yumruğunun ətrafında birləşərək Qarabağımızı işğaldan azad edən igidlərimizin qəhrəmanlığı tezliklə bu müjdəni də bizə verəcək ki, Qərbi Zəngəzur da işğaldan qurtuldu.

**Flora XƏLİLZADƏ**

# Penitensiar xidmət müəssisəsində cəza çəkən məhkuma kitab hədiyyə edilib

**Penitensiar xidmətin 9 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum Rauf Rəhimov AMEA-nın prezidenti v.i.e., akademik Arif Həşimova məktubla müraciət edib.**




Müasir Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri barədə öyrənməyi özü üçün prioritet hesab etdiyini bildirən R.Rəhimov bu sahənin yüzillik dövrü barədə fundamental yanaşmanı özündə əks etdirən, bu yaxınlarda çap edilmiş akademik Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildlik kitabının ona hədiyyə olunmasını xahiş edib.

Həmin məhkumun Dövlət İqtisad Universitetinə də eyni xahişlə müraciət etdiyini qeyd edən akademik Ziyad Səmədzadə artıq universitet tərəfindən ona "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyinin hədiyyə olunduğunu bildirib.

Məhkum Rauf Rəhimov akademik Arif Həşimova ünvanladığı məktubunda beşcildliyin müəllifi akademik Ziyad Səmədzadəyə minnətdarlığını ifadə edib.

# Kələxana türbələr kompleksində aparılan tədqiqatlar tariximizin yeni səhifələrinin yazılmasında mühüm rol oynayacaq

**AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru, professor Abbas Seyidov Şamaxıda yerləşən Kələxana türbələr kompleksində görülən işlərlə növbəti dəfə tanış olub.**



Sözügedən ərazidə tədqiqatlar Heydər Əliyev Fondunun dəstəyi və Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin Şamaxı-Kələxana arxeoloji ekspedisiyasının rəhbəri, professor Qafar Cəbiyevin rəhbərliyi ilə aparılır.

Professor A.Seyidov qeyd edib ki, bu kompleksdə aparılan arxeoloji, antropoloji, epiqrafik tədqiqatlar və kompleksin memarlıq xüsusiyyətlərinin tam, dərindən araşdırılması tariximizin yeni səhifələrinin yazılması üçün öz sözünü deyəcəkdir.

Prof. Qafar Cəbiyev aparılan hərtərəfli tədqiqatların səmərəli olmasından, dini kompleksin elmi əhəmiyyətindən danışıb.

Alimlər, həmçinin bundan sonra görüləcək işlər haqqında fikir mübadiləsi aparıblar.

YENİ NƏŞRLƏR

## Akademik Akif Əlizadənin "Azərbaycan elmi: gələcəyə baxış" ikicildlik kitabının I cildi çapdan çıxıb

**AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadənin "Azərbaycan elmi: gələcəyə baxış" ikicildlik kitabının birinci cildi çapdan çıxıb.**




Akademik Teymur Kərimlinin ümumi redaktorluğu ilə ərsəyə gəlmiş kitabın tərtibçiləri texnika elmləri doktoru Vaqif İbrahimov və geologiya-mineralogiya elmləri üzrə fəlsəfə doktoru Yeganə Lətifovadır.

Nəşrdə görkəmli alim-geoloq və elm təşkilatçısı akademik Akif Əlizadənin seçilmiş məruzələri, çıxışları, məqalələri, həmçinin onunla aparılmış müsahibələr yer alıb.

Kitabda təqdim olunan materiallar 2000-2021-ci illəri əhatə edir və Azərbaycan Respublikasında fundamental elmin inkişafının geniş spektrdə aktual, eyni zamanda problemli məsələlərinə dair müəllif mövqeyini ehtiva edir. Nəşrdə, həmçinin indiki Geologiya və Geofizika İnstitutuna 1976-cı ildən fasiləsiz rəhbərlik edən Akif Əlizadənin əvvəlki illərdəki elmi-təşkilati fəaliyyətinin bəzi məqamları da yer alıb. Nəfis kitabda oxuculara alimin hərtərəfli fəaliyyətini əks etdirən rəngli fotolar bloku da təqdim edilir.

## Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşlarının yeni monoqrafiyası

**AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşları akademik Vaqif Abbasov, kimya elmləri doktoru, professor Çingiz Rəsulov, texnika elmləri doktoru, dosent Gülbəniz Muxtarova və kimya üzrə fəlsəfə doktoru Mehriban Nağıyeva, o cümlədən kimya üzrə fəlsəfə doktoru Vaqif Mirzəyev tərəfindən yazılmış "Neft və qaz emalı prosesləri" adlı monoqrafiya çapdan çıxıb.**




Bu monoqrafiya neft və qaz emalı proseslərinin çox əhatəli, geniş bir sahəsinə həsr olunub. Kitabda mövcud neft-kimya kompleksi qurğularının vacib xüsusiyyətləri və prinsipial sxemləri sadə formada təqdim olunur.

Kitabda eyni zamanda neft və qaz emalı sahəsində çalışan Azərbaycan alimləri və onların bu sahədə rolu haqqında qısa məlumat verilir.

Təqdim olunmuş kitabdan kimya, kimya-texnologiyası fakültəsinin bakalavr və magistr pilləsində təhsil alan tələbələr, doktorantlar, neft və qaz emalı sahəsində çalışan mühəndislər istifadə edə bilər.

## Abituriyentlər üçün informatikadan vəsait nəşr olunub

**Məlum olduğu kimi, AR Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 12 mart 2022-ci il tarixli Qərarına əsasən, 2023-2024-cü tədris ilində I ixtisas qrupu üzrə riyaziyyat-informatika altqrupuna daxil olan ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər 2-ci mərhələdə fizika, riyaziyyat və informatika fənlərindən imtahan verəcəklər.**







Ali təhsil müəssisələrinə qəbulda informatika fənninə yeni status verilməsi qəbula hazırlaşan abituriyentlər, bu fənni tədris edən müəllimlər üçün yeni tədris vəsaitlərinə zərurət yaradıb. Bu məqsədlə Bakı Dövlət Universitetinin dosenti Ramin Mahmudzadə və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisi İsmayıl Sadıqov həmmüəllifi olduqları tədris vəsaitinin 1-ci hissəsi nəşr olunub.

17 bölmədən ibarət olan kitab materialın həcmi nəzərə alınaraq 2 hissəyə ayrılıb. Hər bir bölmə bir neçə mövzudan ibarətdir.

"Bakı" nəşriyyatı tərəfindən yüksək səviyyədə dizayn edilərək nəşr olunmuş dərslik, ilk növbədə, 2023-2024-cü tədris ilində "İnformatika" fənnindən qəbul imtahanı verəcək məktəblilərin (abituriyentlərin) həmin imtahana sistemli şəkildə hazırlaşmaları üçün nəzərdə tutulub. Kitabın hazırlanmasında qəbul imtahanının proqramı və imtahan modeli, eləcə də hazırda istifadədə olan V-XI siniflər üçün "İnformatika" dərslikləri əsas götürülüb. Sadə və anlaşıqlı dildə yazılmış kitabda mənimsəməni asanlaşdıracaq sxem, şəkil və illüstrasiyalar təsvir edilib.

Kitab ümumtəhsil məktəblərinin V-XI siniflərində informatika fənnini tədris edən müəllimlər üçün də əvəzsiz tədris vəsaiti olacaq. Belə ki, eyni bölməyə aid olan, lakin kurrikuluma uyğun olaraq, "İnformatika" dərsliklərinin ümumi təhsil pilləsinin fərqli səviyyələrinə (siniflərinə) paylanmış bir sıra mövzular burada sistemli şəkildə verilmiş və daha ətraflı izah edilib.

Bundan başqa, sözügedən tədris vəsaitindən yuxarı sinif şagirdləri və ali təhsil müəssisələrində "İnformasiya texnologiyalarının əsasları" fənnini öyrənən tələbələr də yararlana biləcəklər. Kitab informasiya-kommunikasiya texnologiyaları sahəsi ilə maraqlanan geniş oxucu kütləsi üçün də faydalı olacaq.

# Yanlış deyimlər və yozumlar

**Son vaxtlar bəzi televiziya və radio verilişlərində, sosial şəbəkələrdə danışanların çıxışlarında, qəzet və jurnal yazılarında, kitablarda, hətta bədii əsərlərdə bir çox sözlərin, terminlərin, deyimlərin, ifadələrin, frazeoloji birləşmələrin, atalar sözlərinin yerində işlənmədiyi, təhrif edildiyi, yanlış yozulduğu tez-tez nəzərə çarpır.**



"YouTube"dakı Azərbaycan kanallarından birində Laçın rayonundakı yabanı (?) atlardan danışılır. Qeyd edək ki, yabanı sözü yalnız bitkilər haqqında işlədilir. Təbiətdə əkilib-becərilmədən özü bitən bitkilərə yabanı bitkilər deyilir. "Yabanı bitki" deyiminin qarşılığı-antonimi "mədəni bitki"dir. Xalq arasında bunları daha yaxşı bilirlər.

Heyvanlar haqqında heç vaxt "yabanı" sözü işlədilmir. Sadə insanların danışığında "yabanı at", "yabanı eşşək" deyimlərinə rast gəlinmir. Onlar "çöl eşşəyi", "çöl atı", və yaxud "vəhşi at", "vəhşi eşşək" ifadələrini işlədirlər. Sonuncu iki ifadənin qarşılığı-antonimi "ev heyvanı"dır. Ev heyvanlarına əhliləşdirilmiş, çöl heyvanlarına əhliləşdirilməmiş heyvanlar da deyirlər.

Rus dilindən birbaşa tərcümə edilərək dilimizə gətirilmiş və həm yazıda, həm də canlı danışıqda dərin kök salmış "iribuynuzlu mal-qara", "xırdabuynuzlu mal-qara" deyimləri kökündən yanlışdır, Azərbaycan türkcəsinin qaydalarıyla uyuşmur. Guya xalqı, onun həyat və məişətini, adət və ənənələrini, maddi və mənəvi mədəniyyətini, təsərrüfatını öyrənən etnoqraflarımızın da bu ifadələri genbol işlətmələri daha çox təəssüf doğurur. Üç cildlik "Azərbaycan etnoqrafiyası" kitabının ilk cildində oxuyuruq: "Azərbaycanda Neolit dövrünə aid bir sıra abidələrdə iri və xırdabuynuzlu heyvan sümükləri aşkar edilmişdir" (Azərbaycan etnoqrafiyası. Üç cilddə. I c. Bakı. 1988, səh.216); "Azərbaycan ərazisinin bir sıra guşələrində orta əsrlərə aid qoyun, qoç və quzudan ibarət daş heykəllərin varlığı, xırdabuynuzlu heyvan təsvirləri onun müqəddəs hayvan sayılması, həm də aparıcı təsərrüfat sahələrindən biri olmasını təsdiqləyir" (Yenə orada, səh.218).

Kitablarımız belə cümlələrlə doludur. Halbuki dilimizdə iribuynuzlu mal-qaraya qaramal, xırdabuynuzlu mal-qaraya isə davar deyilir. Qaramala inək, camış və zebu, davara qoyun-keçi aiddir.

Etnoqrafiya kitablarında yanlış işlədilən terminlər çoxdur. Heyvandarlıq və maldarlıq terminləri də bir çox hallarda qarışdırılır. "Azərbaycan etnoqrafiyası" üçcildliyinin birinci kitabındakı V fəsil "Maldarlıq təsərrüfatı" adlanır. Ona aşağıdakı sahələr daxil edilib: 1. Maldarlıq; 2. Qoyunçuluq; 3. Qaramal; 4. Atçılıq; 5. Dəvəçilik.

Bu bölgüdə etnoqrafın buraxdığı təəssüf doğuran bir neçə ciddi yanlışlıq var. Birincisi, daxilindəki sahələrə görə fəslin adı kökündən yanlışdır, çünki qoyunçuluq, atçılıq və dəvəçilik maldarlıq sahələri deyil. Bunların hamısı maldarlıq da daxil olmaqla heyvandarlıq sahələridir. Yuxarıda deyildiyi kimi, maldarlığa yalnız inək, camış və zebu daxildir. Ona görə fəslin adı "Heyvandarlıq təsərrüfatı" olmalıydı. Əslində burada təsərrüfat sözünə də ehtiyac yoxuydu. İkinci böyük yanlışlıq "Qaramal" başlığıyla bağlıdır. O tamamilə yersizdir. Heyvandarlığın sahəsi maldarlıqdır, qaramal isə sonuncu sahəyə aid olan inək, camış və zebunun ümumi, birlikdə adıdır. Bir fəslin içində "maldarlıq" və "qaramal" başlıqlarından çıxış etsək, onda gərək "qoyunçuluq" başlığının yanında da "davar", yaxud "qoyu-keçi" başlığı qoyulaydı. "Qaramal" başlığında yazılanların hamısı "Maldarlıq" başlığına aiddir və ona görə də onlar birləşdirilməli, "Qaramal" başlığı ləğv edilməliydi.

Belə bir atalar sözümüz var: "Məmə deyəndən pəpə yeyənə". Bu atalar sözünü çox vaxt təhrif edərək "Məmə yeyəndən pəpə deyənə" şəklində işlədirlər. Atalar sözünün açımı "südəmər uşaqlardan böyüklərə qədər hamı" deməkdir. Acan körpə uşaq məmə deyəndə anası başa düşür ki, o əmmək istəyir,ona döş verir. Böyük adam acanda pəpə yeyir. Burada pəpə sözü çörək anlamındadır. Məməni yemirlər, istəyirlər.

Dilimizdəki "qaşın üstdə qara var" frazeoloji deyimi də əksər hallarda təhrif edilir və "gözün üstdə qaşın var" şəklində işlədilir. Sonuncu "əlində barmağın var", "barmağında dırnağın var" kimi adi cümlədir və onda heç bir frazeolojilik yoxdur. Gözün üstündə qaşın olduğu hamıya bəllidir və xalq onu heç vaxt bu cür işlətmir, axı xalq nə yaratdığını və necə yaratdığını yaxşı bilir.

"Gözüm səndən su içmir" ən gözəl, yaranmağı çox çətin olan və ona görə də nadir hallarda yaranan frazeoloji deyimdir. Onu "ağzım səndən su içmir" şəklinə salanda anlamı necə itirsə, "gözün üstdə qaşın var" demək də o qədər bayağıdır.

Son vaxtlar çox tez-tez eşitdiyimiz yanlış ifadələrdən biri də "türkdilli xalqlar" deyimidir. Bunu türkü parçalamaq istəyənlər uydurublar və bizə sırıyıblar. Deyimin arxasında özü türk olmayıb, türk dilində danışmaq anlamı durur. "Türkdilli xalqlar" yox, "türk xalqları" deyilməlidir.

